12 yanvar 2024 №3 (2068)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Müasir tariximizin yeni dövrü başlayır

"Yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi"

Son 20 ilin tarixi göz qabağındadır və əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi.

Prezident İlham Əliyev bu sözləri yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bildirib.

"Çünki hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni, Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi. Hər halda, müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərir ki, güclü lider olmadan və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər", – deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident qeyd edib ki, 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi: "Hesab edirəm ki, bugünkü reallıqları biz 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik, çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı. 1993-2003-cü illərin hadisələrinə nəzər salsaq görərik ki, məhz bu illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq-iqtidar birliyi artıq önəmli bir amilə çevrildi".

"Bu gün ölkə qarşısında duran yeni vəzifələr yeni dövrün vəzifələridir" deyən İlham Əliyev bildirib ki, biz əsas vəzifəni bir neçə ay bundan əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik. 2023-cü ilin 19-20 sentyabrı, Azərbaycanın Qarabağda suverenliyinin tam bərqərar olması, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz: "Yəni, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır".

Prezident deyib: "Təbii ki, hamımız istəyirdik ki, biz öz ərazi bütövlüyümüzü nə qədər mümkünsə, bir o qədər tezliklə bərpa edək. Ancaq tarix nöqteyi-nəzərindən 30 il o qədər də böyük dövr deyil. Bu müddət ərzində danışıqlar prosesi zamanı bir çox təkliflər irəli sürülmüşdü və bəziləri düşünə bilərdi ki, nə üçün Azərbaycan bu təklifləri qəbul etmir? Axı, bu təkliflər əsasında rayonların bir neçəsi Azərbaycana heç bir müharibə aparılmadan qaytarılacaq, oraya keçmiş köçkünlər qayıdacaq, eyni zamanda, vəziyyət normallaşacaq. Nə üçün Azərbaycan bu təkliflərlə razılaşmır və barışmır? Təbii ki, danışıqlar prosesinin öz



strategiyası, öz taktikası var idi. Biz danışıqları elə aparırdıq ki, öz məqsədlərimizə çatmaq üçün minimum xarici təzyiqlə üzləşək. Amma mənim üçün əsas məsələ o idi ki, bu, tarixi məsələdir, bu, ümummilli məsələdir və burada əlverişli görünə biləcək hansısa nailiyyət dalınca qaçmaq lazım deyil. Biz məsələni köklü şəkildə həll etməliyik, birdəfəlik həll etməliyik, ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməliyik. Ölkəmizdə separatizm yuvası qalmamalıdır və əgər bizim nəslimizə bunu etmək nəsib olmasa, elə gənc nəsil yetişdirməliyik ki, 20 ildən sonra, 30 ildən sonra, 50 ildən sonra onlar gəlib bunu etsin. Bax, əsas məsələ bu idi".

davamı səh.2-də

## Baba Vəziroğlu "Şərəf" ordeni ilə təltif edilib

Əməkdar incəsənət xadimi, şair, tərcüməçi, ssenarist Baba Vəziroğlu (Baba Vəzir oğlu Məsimov) Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şərəf" ordeni ilə təltif edilib.

səh.2

## Baş planın reallaşması necə baş verəcək?

Paytaxt Bakının digər əraziyə köçürülməsi yanlış fikirdir. Paytaxtın öz funksiyaları var və bu funksiyalar daxilində şəhər öz həyatını yaşamalıdır.

Bunu "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"na münasibət bildirərkən Azərbaycan Memarlar İttifaqının (AMİ) sədri Elbay Qasımzadə deyib.

Bakıda həddən artıq yüklənmə olduğunu etiraf edən E.Qasımzadə bildirib ki, bir çox iri dövlət qurumları artıq şəhərin mərkəzi hissəsindən köçürülüb. Eyni zamanda, Heydər Əliyev prospektində böyük dövlət qurumları üçün yeni ofislərin tikintisi aparılır.

"Bu, düzgün siyasət olmaqla yanaşı, özünü tam doğruldur. Həmçinin şəhərin mərkəzində nəqliyyatın sıxlığını bir qədər yüngülləşdirir. Amma əsas bu deyil. Paytaxtın köçürülməsi ilə birgə böyük sayda mütəxəssislərin, dövlət qulluqçularının da başqa yerə köçürülməsi düşünülməlidir. Bu mümkündürmü?", – deyə o əlavə edib.

Paytaxtın köçürülməsi ilə bağlı Qazaxıstan nümunəsindən danışan memar bildirib ki, ölkə paytaxtının Astanaya köçürülməsinin təkcə Almatı şəhərinin yüklənməsi problemi deyil, digər səbəbləri də var idi: "Amma nə əldə olundu? Bu gün Astana maraqlı bir memarlıq muzeyidir, amma bir şəhər olaraq canlanma yoxdur. Mütəxəssislər və dövlət qulluqçuları Astanaya məcburiyyət qarşısında köçürüldülər. Lakin Almatının əsas sakinləri köçmədilər".

davamı səh.3-də



1908-ci il yanvarın 12-də (yeni təqvimlə 25 yanvar) Bakıdakı Tağıyev teatrında (indiki Akademik Musiqili Teatrın yerində) dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşası olub. Bu, müsəlman Şərqində yaranan ilk opera idi. Üzeyir bəy Azərbaycanda peşəkar bəstəkarlıq sənətinin təməlini qoydu. "Leyli və Məcnun"la həmçinin musiqi tarixində operanın yeni növü – muğam operası meydana gəldi.

## 116 yaşlı "Leyli və Məcnun"

Opera dahi Azərbaycan şairi Məhəmməd Füzulinin eyniadlı poemasına əsaslanır. Bəstəkarın fikrincə, Füzuli poemasının ruhu, lirikası məhz muğam kimi möhtəşəm bir musiqi ilə təcəssüm oluna bilər: "Mənim vəzifəm ancaq Füzuli poemasının sözlərinə forma və məzmunca zəngin, rəngarəng muğamlardan musiqi seçmək, hadisələrin dramatik planını işləyib hazırlamaq idi".

Ü.Hacıbəyli məqalələrindən birində "Leyli və Məcnun"un yaranma tarixindən bəhs edərək yazırdı ki, 1897 - 1898-ci illərdə, on üç yaşında olarkən, doğma şəhəri Şuşada "Məcnun Leylinin məzarı üstündə" adlı musiqili səhnəyə baxır. Həmin kiçik tamaşanı yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyev Şuşanın tanınmış musiqiçilərinin köməyi ilə hazırlamışdı. Məcnun rolunun ifaçısı Cabbar Qaryağdıoğlu idi. Üzeyir bəyin yazdığına görə, bu tamaşa onun yaddaşına həkk olunur. Qori Müəllimlər Seminariyasını bitirib Bakıya gələndən sonra o məhz Füzulinin "Leyli və Məcnun"u əsasında opera yazmaq qərarını verir.

"Leyli və Məcnun" operasının ilk tamaşasına aktyor və rejissor Hüseyn Ərəblinski quruluş vermişdi. Dirijor isə Əbdürrəhim bəy Haqverdiyev idi. Tamaşanın bədii tərtibatında publisist, rəssam Əli bəy Hüseynzadənin rolu olmuşdu. İlk tamaşanı müşayiət edən orkestr Üzeyir bəyin seminariya yoldaşları olan həvəskar musiqiçilərdən ibarət idi. Muğam hissələrini ustad tarzənlər Qurban Pirimov və Şirin Axundov müşayiət edirdilər. Məcnun rolunun ilk ifaçısı görkəmli teatr və musiqi xadimi Hüseynqulu Sarabski idi.

Müsəlman qadınların səhnəyə çıxmasına yol verilmədiyi o zaman Leyli rolunun ifaçısını tapmaq çox çətin idi. Qadın rollarını kişilər ifa edirdi. İlk tamaşada Leyli rolunun ifası məlahətli səsə malik bir gəncə (Əbdülrəhman Fərəcov) tapşırıldı. Sonralar isə Leyli rolunda məşhur ifaçı Əhməd Ağdamski çıxış etmişdi.

Sonralar Leyli rolunda Sona Hacıyeva, Sürəyya Qacar, Həqiqət Rzayeva, Gülxar Həsənova, Yavər Kələntərli, Sima Haşımlı, Simuzər Hətəmova, Rübabə Muradova, Nəzakət Məmmədova, Qəndab Quliyeva və başqa mərhum sənətçilər, eləcə də Zeynəb Xanlarova, Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Simarə İmanova, Gülyaz Məmmədova, Gülüstan Əliyeva, Nəzakət Teymurova, Aygün Bayramova və bu günün digər tanınan ifaçıları səhnəyə çıxırlar.

Səhnəmizin Məcnunu isə Hüseynağa Hacıbababəyov, Xanlar Haqverdiyev, Şirzad Hüseynov, Əlövsət Sadıqov, Əbülfət Əliyev, Qulu Əsgərov, Mais Salmanov, Əli Mehdiyev, Baba Mahmudoğlu, Canəli Əkbərov, Səfa Qəhrəmanov, Alim Qasımov, Mənsum İbrahimov və başqa xanəndələr olub.

Bir əsrdən çoxdur ki, "Leyli və Məcnun" operası səhnədədir. Məcnunlar, Leylilər nəsil-nəsil bir-birini əvəz edir. Əsər isə təravətini itirmir, Azərbaycan milli operasının inkişaf yoluna ildənilə parlayan işıq salır...

## Xalça Muzeyində "Zamana qalib gələn milli irsimiz"

Azərbaycan Milli Xalça Muzeyində "Zamana qalib gələn milli irsimiz" adlı sərgi təşkil edilib.



Yanvarın 12-də açılışı olan sərgidə 2022 - 2023-cü illər ərzində muzeyin Xalça və dekorativ-tətbiqi sənət üzrə konservasiya, bərpa və profilaktik nəzarət şöbəsində konservasiya olunmuş 30-dək eksponat təqdim edilir.

Ekspozisiyaya XVII–XX əsrlərə, həmçinin müasir dövrə aid nadir xalçalar, nəfis xalça məmulatları, zərif tikmələr, milli geyim və qiymətli zərgərlik nümunələri, bədii metal və saxsı qablar aiddir.

## Heykəldən acıq çıxan fransızlar...

Deyəsən, peşman olublar



Xurşidbanu Natəvanın heykəlinin olduğu bağın ləğv olunacağı, heykəlin oradan götürüləcəyi barədə mətbuatda yayılan xəbərlər həqiqəti əks etdirmir.

Bu barədə AZƏRTAC-a Fransanın Evian-le Bən şəhər meriyasından bildirilib.

Qeyd edilib ki, Evian-le Bən şəhərindəki görkəmli Azərbaycan şairi Xurşidbanu Natəvanın heykəlinə qarşı vandalizm aktı törədilib, daş lövhələr sındırılıb. "Meriya heykəlin təmir edilməsi və təmizlənməsi, eləcə də bağın adını daşıyan daş lövhələrin bərpası üçün mütəxəssislər axtarır. Bərpa edildikdən sonra lövhələr də, heykəl də öz yerində qalacaq", – deyə açıqlamada vurğulanıb.

Məlum olduğu kimi, dünyanın mədəniyyət mərkəzlərindən hesab edilən, BMT-nin təhsil, elm, mədəniyyət üzrə təşkilatının mənzilləndiyi Fransada XIX əsr Azərbaycan poeziyasının görkəmli simalarından olan, "Gül dəftəri" illüstrasiyalı şeirlər albomu UNESCO-nun Dünya Yaddaşının Beynəlxalq Reyestrinə salınmış Xurşidbanu Natəvanın heykəli vandalizm aktına məruz qalıb. Evian-le Bən şəhərində Natəvanın heykəlinə qarşı atılan bu addım Fransa hökumətinin mədəni irsin qorunmasına, eləcə də müxtəlif mədəniyyətlərə olan "hörməti"ni əks etdirir.

davamı səh.8-də

## "Peşəmin zirvəsində olanda kinodan getdim"



O, dekabrın son günü – 31-də doğulub. Elə görüşümüz, söhbətimiz də ilin son günlərinə təsadüf etdi. 75 yaşını illərin yolayrıcında qeyd edən, səs-siz-səmirsiz adam təsiri bağışlayan Əməkdar incəsənət xadimi, kinooperator və fotoqraf Rafiq Qəmbərov. Deyəsən, müsahibə verməklə heç arası yoxdur. Amma biz cəhd elədik...

"Kinonun mövcudluğu üçün baza olmalıdır. Rusiyada, başqa ölkələrdə kino təhsili alan nəsil qocalıb, çoxu dünyadan köçüb. Gənclər isə, demək olar ki, ortada yoxdur. Axı maddi-texniki baza da yoxdur. Baza da, onunla işləyən kadrlar da paralel yetişməli idi...".

səh.6



Ankaralı arşınmalçı – dördüncü dəfə

səh. 3




Gəncədə "Muğam gecələri"

səh.4



Gəlməyəcək qatarı gözləmək kimi...

səh.5

№3 (2068)
12 yanvar 2024
www.medeniyyet.az

# Müasir tariximizin yeni dövrü başlayır

## "Yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi"



əvvəli səh. 1-də

### Xankəndidə bayrağın qaldırılması ədalətin tam bərpası idi

Dövlətimizin başçısı 2023-cü ilin 15 oktyabrında Xankəndidə, Xocalıda Azərbaycan bayrağını ucaldarkən keçirtdiyi hissləri də xatırlayıb: "Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bu kadrları görəndə hamımız eyni hissləri keçirmişik, o cümlədən mən də. Mənim hisslərim Azərbaycan vətəndaşlarının hisslərindən heç də fərqlənmirdi, qürur və sevinc hissi əlbəttə ki. Eyni zamanda, fikirləşirdim ki, ədalətə inanmaq lazımdır. Çünki 30 il ərzində ədalətə inam Azərbaycan cəmiyyətində müəyyən dərəcədə sarsılmışdı və istənilən cəmiyyət üçün bu, yaxşı hal deyil. Bu, istər-istəməz insanların şüuruna mənfi təsir göstərir, ruh düşkünlüyünə gətirib çıxara bilir, bədbinlik hisslərinin cəmiyyətdə geniş vüsət almasına şərait yaradır. Yəni, cəmiyyətin, sağlam cəmiyyətin yaranması, möhkəmlənməsi üçün bu amillər çox təhlükəlidir. Ona görə ədalətə inanmaq üçün əsas olmalıdır. Onu da biz hamımız bilməliyik ki, ədalət özü-özünə gəlmir, ədaləti sən gərək təmin edəsən. Müasir dünyada biz bunu artıq çoxdan başa düşmüşük. Əgər mənim çıxışlarıma nəzər salsanız, bəlkə də son 10-15 il ərzində mən dəfələrlə deyirdim ki, dünyada beynəlxalq hüquq işləmir. Bu mexanizmlər ancaq zəif ölkələr üçün işə salınır. Böyük dövlətlər buna məhəl qoymur. Onlar üçün sanki qanun qanun deyil, beynəlxalq hüquq hüquq deyil. Belə olan halda, ədaləti tələb edən, haqlı olaraq tələb edən ölkələr bu ədaləti özləri təmin etməlidir. Biz, məhz bu prinsipi rəhbər tutaraq son illər ərzində fəal işləmişik və ədaləti özümüz bərpa etmişik...

Halbuki əfsuslar olsun ki, beynəlxalq aləmin əsas oyunçuları bizim bu fikrimizə şərik olmadılar. Əksinə, bizi ittiham etməyə çalışdılar, bizə qarşı müxtəlif təzyiq mexanizmlərini işə salmağa çalışdılar. Yəni, biz bu ədaləti, eyni zamanda, beynəlxalq müstəvidə siyasi və diplomatik savaş apararaq əldə etmişik. Ona görə bizim Zəfərimizin əhəmiyyəti daha önəmlidir...

Təbii ki, Xocalıda bayrağı qaldıranda fikirləşirdim, bax, bu gün biz tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xocalıda bayrağın qaldırılması daha da həyəcanlı idi, onu açıq deyə bilərəm. Xankəndidə isə bayrağın qaldırılması ədalətin tam bərpası idi və Zəfərimizin son nöqtəsi idi...".

Prezident qeyd edib ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsindən sonra Qarabağda nələr baş verdiyindən tam xəbərdar idik, həm vizual, həm operativ nəzarət edirdik. Yəni, bunu Ermənistana çatdırmağa çalışırdıq ki, bu, bizim nəzarətimizdədir və istənilən an biz əməliyyat keçirə bilərik: "Bu hadisələrin gedişatı onu göstərdi ki, – hesab edirəm, bu, təkcə Ermənistan üçün yox, Ermənistanın arxasında dayananlar üçün də bir dərs olmalıdır, – bizimlə hədə-qorxu dili ilə, yaxud da təkəbbürlə davranmaq mümkün deyil".

Dövlətimizin başçısı onu da diqqətə çatdırıb ki, bizə qarşı qanlı müharibə aparan, vandallıq törədən, Xocalı soyqırımını törədən, torpaqlarımızı, şəhərlərimizi, kəndlərimizi yerlə yeksan edən canilər bu gün həbs olunub, saxlanılıb və ədalət qarşısında cavab verəcəklər.

Onların arasında Qarabağda olmuş bütün dırnaqarası keçmiş liderlər, ondan sonra Qarabağa ixrac edilmiş dırnaqarası baş nazir və digərləri var: "O qruplaşmada təkcə iki nəfər çatışmır, onlar da İrəvandadırlar, onlar da olsa, onda tam heyət formalaşır. Bu, doğrudan da, ədalətin Zəfəridir və mən deyəndə ki, ədalətə inanmaq lazımdır və ədaləti təmin etmək üçün mübarizə aparmaq lazımdır, məhz bunu nəzərdə tuturdum".

Ermənistanla sülh müqaviləsi ilə bağlı gedən prosesdən danışan dövlətimizin başçısı bildirib ki, onun imzalanması üçün əsas şərtlər yaradılıb. Ermənistan istəyir ki, bu sülh müqaviləsinin zəmanətçiləri olsun. Biz hesab edirik ki, buna heç bir ehtiyac yoxdur. Bu, iki suveren dövlət arasında imzalanacaq sülh müqaviləsi olacaq. Biz orada heç bir zəmanətçilərə ehtiyac duymuruq və əgər bu, ikitərəfli formatda imzalanacaqsa, imzalanmalıdır. Əgər kimsə kömək etmək istəyirsə, biz buna da etiraz etmirik.



### Bu il beş şəhərə köç başlayacaq

Prezident Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən infrastruktur layihələri və Böyük Qayıdış barədə də danışıb. "İnfrastruktur layihələri imkan verir ki, biz bu il daha böyük sayda keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytaraq və onların bu il qaytarılacaqları şəhərlər arasında beş şəhər – Şuşa, Cəbrayıl, Kəlbəcər, Xankəndi, Xocalı şəhərləri olacaq. Laçın, Füzuli şəhərləri, Ağalı, Talış və Zabux kəndləri artıq dirçəlir. Bu il həmin yaşayış məntəqələrinə keçmiş köçkünlərin qaytarılması davam edəcək.

Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə isə keçmiş məcburi köçkünlərin 2025-ci ildə qayıtması nəzərdə tutulur. Bununla paralel olaraq bir çox kəndlərdə, – hansılarda ki, mən təməl qoymuşam, – orada inşaat davam edəcək, bir neçə kəndə keçmiş köçkünlər qayıdacaqlar. Məsələn, Laçın rayonunun Sus kəndi hazır olacaq. Ondan sonra Xocalı rayonunun Kərkicahan, Malıbəyli, Turşsu kəndlərinin də bərpasına artıq start veririk... 2026-cı ilin sonuna qədər hədəfimiz 140 min keçmiş köçkünü öz dədə-baba torpaqlarına qaytarmaqdır. Əminəm ki, biz buna da nail olacağıq".

2024-cü ilin investisiya proqramının artıq bir neçə dəfə müzakirədən keçdiyini, yaxın günlərdə təsdiqlənəcəyini söyləyən İlham Əliyev bildirib ki, bu il Qarabağ və Şərqi Zəngəzurda infrastruktur layihələrinin hamısı davam etdiriləcək. Zəngəzur nəqliyyat dəhlizinə gəlincə, Azərbaycandan Azərbaycana (Naxçıvan MR-ə – red.) insanlar və yüklər heç bir yoxlama aparılmadan keçməlidir: "Əks təqdirdə, Ermənistan əbədi dalan kimi qalacaq və əgər, dediyim marşrut açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik. Yəni, beləliklə, onlar bundan daha çox ziyan görəcəklər, nəinki xeyir".

Dövlətimizin başçısı Azərbaycanın hələ də Ermənistanın işğalı altında qalan sərhəd kəndləri məsələsinə də toxunub. Bildirib ki, həmin səkkiz kəndlə bağlı həm Ermənistanın baş naziri ilə təmaslar əsnasında müzakirə edilir və eyni zamanda, delimitasiya ilə bağlı komissiyaların gündəliyindədir: "Onu da bildirməliyəm ki, komissiyaların növbəti görüşü bu ay nəzərdə tutulur və orada bir mövzu olacaq: həmin o bölgənin delimitasiya məsələsi, Qazax-Tovuz bölgəsinin".

### Sərhədboyu mövqelərdən bir addım geri gedən deyilik

Prezident onu da vurğulayıb ki, biz sərhəddə nə 2021-ci ilin may ayında, nə də 2022-ci ilin sentyabr ayında əldə olunan mövqelərdən bir addım geri gedən deyilik, çünki o sərhəd müəyyən edilməlidir: "Bizim indi Ermənistan tərəfindən mübahisə edilən yerləşməyimiz heç bir yaşayış məntəqəsini əhatə etmir. Bizim durduğumuz mövqelərdə, təpələrdə heç vaxt yaşayış olmayıb. Ermənistan isə bu gün bizim kəndlərimizi işğal etməkdə davam edir və bu, dözülməzdir. Yenə də qeyd etmək istəyirəm və hesab edirəm ki, komissiyaların bu ayın sonunda görüşü əsnasında bu məsələyə aydınlıq gətiriləcək".

Prezident əlavə edib ki, qazandığımız Zəfər, əldə etdiyimiz tarixi nailiyyətlər gələcək inkişafımız üçün böyük zəmindir. O cümlədən 2019 - 2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik bizə BMT-dən sonra ən iri təşkilata rəhbərlik etmək kimi əvəzolunmaz təcrübə verib və doğru yolda olduğumuza dair daha böyük özünəinam yaradıb. Amma bizə qarşı ənənəvi mənbələrdən gələn mənfi münasibət dayanmayacaq. Ermənistanı silahlandırma cəhdləri bu məqsədi daşıyır ki, bizi daim təzyiq altında saxlasınlar: "Bu gün Ermənistanı silahlandıran, onlara ürək-dirək verən, onların hərbçilərini hazırlayan və növbəti müharibəyə hazırlayan ölkə Fransadır. Ona görə mən deyəndə ki, Fransanın siyasəti Qafqazda gərginliyin artmasına səbəb olur, məhz bunu nəzərdə tuturdum... Biz yolumuza davam edəcəyik. Qoşulmama Hərəkatında sədrliyimiz başa çatır, amma Bakı Təşəbbüs Qrupu yaşayacaq... Biz fransız neokolonializminin ifşa olunmasını və fransız müstəmləkələrinin Fransanın zülmündən azad olunması prosesini dəstəkləyəcəyik".

Xurşidbanu Natəvanın Fransada heykəlinin təhqir olunması məsələsinə də toxunan dövlətimizin başçısı bu hadisə ilə ermənilərin Natəvanın Ağdamdakı məzarını qazmaları arasında müqayisə aparıb, burada bir oxşarlığın olduğunu qeyd edib: "Ona görə də indi vəziyyət belədir, biz, əlbəttə ki, bütün bunlara cavab verəcəyik. Biz təkcə müdafiə olunan və özünə bəraət qazandıran ölkə deyilik. Biz adekvat cavablar veririk və verəcəyik. Belə ki, fransız imperializminin müstəmləkə ölkələrində törətdiyi vəhşiliklər haqqında dünyanın xatırlayacağı faktlar həddindən artıq çoxdur".

İlham Əliyev qeyd edib ki, 2024-cü ildə Azərbaycan COP29-un prezidenti kimi xüsusi rola malik olacaq. Proseslərin gedişatı böyük dərəcədə bizim mövqeyimizdən asılı olacaq. Artıq bir neçə ölkədən əməkdaşlıq təklifi almışıq: "Biz bütün ölkələrlə əməkdaşlığa hazırıq və bu, bizim üçün də böyük bir təcrübə olacaq. Çünki yenə də hesab edirəm ki, bu, dünyanın bir nömrəli beynəlxalq tədbiridir, beynəlxalq konfransıdır, həmçinin dünya ictimaiyyətinin diqqəti nöqteyi-nəzərindən BMT Baş Assambleyasından da daha mötəbərdir".

### Prezident seçkiləri niyə vaxtından əvvəl keçirilir?

İlham Əliyev müsahibə zamanı fevralın 7-nə təyin edilən növbədənkənar prezident seçkilərini şərtləndirən əsas amilləri diqqətə çatdırıb: "Birinci səbəb, təbii ki, suverenliyimizin tam bərpasıdır, çünki seçkilər bir dövrə yekun vurur. Sentyabr ayında biz elə bir dövrə yekun vurmuşuq ki, bu, epoxal bir hadisədir. Yəni, Azərbaycanın çoxəsrlik tarixində mən hesab edirəm ki, buna oxşar Zəfər olmamışdır. Bütün amilləri – siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq, hesab edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq Qələbəsidir. Təbii ki, bu yeni dövr başlayarkən, əlbəttə, prezident seçkiləri də bu yeni dövrün başlanğıcı olmalıdır. Çünki hər bir dövr bir zaman kəsiyidir və 30 il ərzində işğal altında olmuş ərazilərin işğaldan azad edilməsi və suverenliyi tam bərpa etməyimiz yeni dövrün başlanğıcı idi. Bu, birinci səbəbdir.

İkinci səbəb ondan ibarətdir ki, ilk dəfə olaraq müstəqil həyatımızda seçkilər ərazilərimizin hər bir yerində keçiriləcək. Prezident seçkiləri bütün digər seçkilərlə müqayisədə ən vacib seçkilər olduğu üçün mən hesab etdim ki, birinci bütün ərazilərdə keçiriləcək seçkilər prezident seçkiləri olmalıdır. Əgər biz seçkiləri vaxtında, yəni, 2025-ci ilin aprelində keçirməli olsaydıq, o zaman bələdiyyə seçkiləri daha tez keçiriləcəkdi. Mən hesab etdim ki, bu, düzgün olmaz. Azad edilmiş ərazilərdə və ölkəmizin hər bir yerində prezident seçkiləri birinci seçkilər olmalıdır.

Digər səbəb ondan ibarətdir ki, mənim Prezident kimi fəaliyyətimin 20 ili tamamlandı. Bu da bir dövrdür və bunu da biz bir yekun kimi qəbul etməliyik və 20 ildən sonra yenidən prezident seçkilərinin keçirilməsi, təbii ki, bu xronoloji dövrü də əsaslandırmış olur. Yəni, əsas səbəblər bunlardır. Amma mən bu səbəbləri, bu sıralamanı əhəmiyyət üzrə etmişəm. Birinci səbəb, əlbəttə ki, yeni dövrün başlanğıcıdır və prezident seçkiləri bu yeni dövrə də xeyir-dua verəcəkdir".

### Yeni dövrün yeni hədəfləri olmalıdır

"Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni, bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik" deyən İlham Əliyev bildirib ki, yeni dövrün yeni hədəfləri olmalıdır: "Biz yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi və indi bəzi ölkələr var ki, öz tarixi keçmişini, tarixi uğurları illər boyunca, onilliklər ərzində istismar edirlər. Halbuki onların özlərinin o zəfərlərə heç bir aidiyyəti yoxdur. Yəni, biz o ölkələrdən olmaq istəmirik. Biz nə etmişiksə etmişik, xalq da bunu qiymətləndirir və qiymətləndirəcək. Ancaq bu tarixi Zəfəri də bundan sonra daim istismar etmək düzgün olmaz. Çünki birincisi, siyasi nöqteyi-nəzərdən düzgün olmaz. İkincisi, cəmiyyətdə elə bir sakitləşmə ovqatı da yaradılmamalıdır. Birincisi, biz hər zaman çox ayıq olmalıyıq, çünki bizə qarşı olan hərəkət, dediyimiz bu məsələlərlə bitməyəcək, bundan sonra da davam edəcək. Çünki biz dünya miqyasında çox böyük layları tərpətdik. Bəlkə də təhlilçilər görürlər ki, bizim Zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəlib. Böyük layları tərpətdik biz. Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir...

Ona görə cəmiyyətdə sakitləşmə olmamalıdır. Demirəm, hər an biz fikirləşməliyik ki, yeni müharibə olacaq. Yox, mən əminəm ki, olmayacaq və əlimdən gələni edəcəyəm ki, olmasın. Yetər, müharibələr kifayətdir. Ancaq yeni konseptual inkişaf strategiyamız, milli ideologiyamızın yeni istiqamətləri və əldə edilmiş uğurlarla sakitləşmək sanki müəyyən durğunluğa gətirib çıxara bilər. Bu, ayrı bir böyük söhbətin mövzusudur. Bəlkə nə vaxtsa ayrıca bu məsələ ilə bağlı da biz danışarıq. Amma hər halda sualınıza cavab verərək deməliyəm ki, bəli, yeni dövr başlayır və əminəm, bu dövr də ölkəmiz üçün uğurlu olacaq".

# Baba Vəziroğlu "Şərəf" ordeni ilə təltif edilib



Əməkdar incəsənət xadimi, şair, tərcüməçi, ssenarist Baba Vəziroğlu (Baba Vəzir oğlu Məsimov) Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şərəf" ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev bununla bağlı yanvarın 11-də sərəncam imzalayıb.

Qeyd edək ki, yanvarın 10-da Baba Vəziroğlunun 70 yaşı tamam olub. Sənətkarı yubileyi və dövlət təltifi münasibətilə təbrik edirik.

# Rəsulzadənin 140 illiyi ilə bağlı tədbirlər planı hazırlanacaq



Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin növbəti iclasında ölkə başçısının "Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli sərəncamının icrasından irəli gələn vəzifələrlə bağlı müzakirələr aparılıb.

Akademiyanın prezidenti akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, sərəncamda Mədəniyyət Nazirliyinə Elm və Təhsil Nazirliyi və AMEA ilə birlikdə Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb.

Məhəmməd Əmin Rəsulzadənin görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri olduğunu deyən İsa Həbibbəyli onun publisistik, ədəbi-tənqidi və elmi irsinin Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutduğunu bildirib.

Sərəncamın icrasını təmin etmək məqsədilə akademiyanın Humanitar Elmlər və İctimai Elmlər bölmələrinə AMEA-nın tədbirlər planının hazırlanması üçün müvafiq tapşırıqlar verilib.

# Qubadlıda növbəti radio-televiziya yayım stansiyasının işi bərpa edilib

Qubadlı rayonu ərazisində yerləşən Balasoltanlı radio-televiziya yayım stansiyası torpaqlar işğal altında olan müddətdə istismara yararsız vəziyyətə düşüb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib ki, işğaldan azad olunan ərazilərdə radio-televiziya yayım şəbəkəsinin bərpası istiqamətində aparılan işlər çərçivəsində sözügedən stansiyaya elektrik xətti çəkilib, texniki bina təmir edilib və stansiya texniki vasitələrlə təchiz olunaraq yayım üçün hazır vəziyyətə gətirilib.



Nəticədə Azərbaycan Radiosunun, İctimai Radionun və 8 televiziya proqramının (AzTV, İctimai TV, İdman Azərbaycan TV, Mədəniyyət TV, CBC Sport, ATV, Xəzər TV, Space TV) Qubadlı, Laçın və Zəngilan rayonlarının digər stansiyaların siqnalları ilə əhatə olunmayan ərazilərində yayımı təmin edilib.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək 7 radio-televiziya yayım stansiyasının, o cümlədən Qubadlı rayonu ərazisində 2021-ci il oktyabrın 25-də Xanlıq radio-televiziya yayım stansiyasının işi bərpa edilib.

Bərpa tədbirləri Böyük Qayıdışa dair I Dövlət Proqramının icrasına uyğun olaraq həyata keçirilir.

# "Məni Şaiqdən ayırmayın..."

## Akademik Kamal Talıbzadənin muzeyşünaslıq fəaliyyəti ilə bağlı tədbir keçirildi

Yanvarın 10-da Muzey Mərkəzində "Məni Şaiqdən ayırmayın – Kamal Talıbzadə" adlı tədbir keçirildi.



Abdulla Şaiqin Mənzil-Muzeyinin görkəmli ədəbiyyatşünas, pedaqoq, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, akademik Kamal Talıbzadənin (1923 – 2006) 100 illik yubileyi silsiləsindən növbəti tədbiri alimin muzeyşünaslıq fəaliyyətinə həsr edilmişdi.

Muzeyin direktoru Ülkər Talıbzadə qonaqları salamladı, bütün iştirakçılara təşəkkürünü bildirdi.

Elm, mədəniyyət və incəsənət xadimləri Kamal Talıbzadə ilə bağlı xatirələrini bölüşdülər.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru akademik Teymur Kərimli Kamal Talıbzadəni orta məktəbdə oxuduğu illərdən tanıdığını dedi: "Onun Abdulla Şaiqin oğlu olduğunu da bilirdim. İlk tanışlığım isə aspirantura imtahanı verdiyim gün olmuşdu. Kamal Talıbzadə, sözün həqiqi mənasında, klassik bir ziyalı idi".

Azərbaycan Aşıqlar Birliyinin sədri Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı qeyd etdi ki, ona elm yolunda ilk xeyir-duanı Abdulla Şaiq ocağı və Kamal Talıbzadə verib: "Kamal müəllimin elmi səmimiyyəti, müdrikliyi heç vaxt yadımdan çıxmır. O bizə həmişə hər hansı elmi məsələni dərinliklə başa salırdı. 26 yaşı olanda akademiyada şöbə müdiri işləmişdi. Öz yaşını qabaqlayan müdrikliyi onu yaşıdlarından fərqləndirirdi. O, ensiklopediya kimi bir adam idi".

AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru akademiyanın müxbir üzvü Ərtegin Salamzadə Kamal Talıbzadənin "Azərbaycan ədəbi tənqidinin tarixi" kitabından söz açdı: "Ədəbiyyatşünaslıq, əslində, ədəbiyyat haqqında refleksiyadır. Sənətşünaslıq incəsənətin refleksiyasıdır. Kamal müəllimin bu əsəri, baxmayaraq ki, ədəbi tənqidə həsr olunub, bütövlükdə ədəbiyyatşünaslığı bir elm kimi əhatə edir".

Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri professor Asif Rüstəmli Kamal Talıbzadənin böyük və əqidəli bir nəslin nümayəndəsi olduğunu dedi: "Onun dərs dediyi tələbələr sonralar Azərbaycan ədəbiyyatında və mədəniyyətində xüsusi yer tutublar. Ədəbiyyat İnstitutunun inkişafında Kamal müəllimin birbaşa rolu olub. Abbas Səhhətin həyat və yaradıcılığı ilə bağlı yazdığı dissertasiya dövrünün ən populyar ədəbiyyatşünaslıq əsərlərindən idi".

Xəzər Universitetinin təsisçisi professor Hamlet İsaxanlı, Bakı Dövlət Universitetinin professorları Knyaz Aslan, Vaqif Sultanlı, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi Nəzakət Qafqazlı da akademiklə bağlı xatirələrini bölüşdülər.

Tədbirin bədii hissəsində Bakı Musiqi Akademiyasının professoru, pianoçu, Xalq artisti Ülviyyə Hacıbəyova Zülfüqar Hacıbəyovun Abdulla Şaiqin eyniadlı əsərinə bəstələdiyi "Nüşabə" operasından uvertüranı ifa etdi. A.Şaiqin sözlərinə bəstələnmiş Səid Rüstəmovun "Sevirəm səni", Əşrəf Abbasovun "Oxu, bülbülüm" romansları respublika və beynəlxalq müsabiqələr laureatları Nigar Əsgərova (vokal) və Ayan Aslanovanın (fortepiano) ifasında səsləndi.

Əməkdar artist, aktyor Şövqi Hüseynov isə A.Şaiqin "Yad et məni!" şeirini xüsusi ilhamla səsləndirdi. Məclis iştirakçıları aktyorun çıxışını alqışla qarşıladı.

3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin müəllimi Gülnarə Qurbanova və kiçikyaşlı vokalçıların ifasında Cahangir Cahangirovun və Səid Rüstəmovun A.Şaiqin sözlərinə bəstələnmiş mahnılarından ibarət musiqi çələngi də maraqla qarşılandı.

Tədbirdə Abdulla Şaiqin Mənzil-Muzeyinin hazırladığı Kamal Talıbzadənin foto və kitablarından ibarət sərgi də nümayiş etdirildi. Alimin həyat və fəaliyyətini əks etdirən slayd-şou təqdim olundu.

**Lalə Azəri**

# Polşa səfiri Milli Azərbaycan Tarixi Muzeyində

Polşanın ölkəmizdəki səfiri Rafal Poborski Milli Azərbaycan Tarixi Muzeyində olub. Bu barədə muzeydən məlumat verilib.



Muzeyin direktoru akademik Nailə Vəlixanlı ilə görüşdə Polşanın Azərbaycandakı tarixi irsi, Azərbaycan-Polşa mədəni-tarixi əlaqələri ilə bağlı müzakirələr aparılıb. Həmçinin Polşa tərəfi ilə muzey arasında səmərəli əməkdaşlıq layihələrindən bəhs edilib.

Diqqətə çatdırılıb ki, muzeyin yerləşdiyi, vaxtilə məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin mülkü olmuş tarixi bina polşalı memar İosif Qoslavskinin layihəsi ilə tikilib.

Sonra səfir binada fəaliyyət göstərən Hacı Zeynalabdin Tağıyevin Ev-Muzeyini ziyarət edib. Qonağa muzeyin dəyərli eksponatları əsasında hazırlanmış nəşrlər hədiyyə olunub.

# Kamera və Orqan Musiqisi Zalında "Daha bir Yeni il"

Yanvarın 10-da Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalının səhnəsində "Daha bir Yeni il" müəllif layihəsi keçirilib. Tədbirin təşkilatçısı və gecənin solisti violonçel ifaçısı, Dövlət Simfonik Orkestrinin artisti Nərgiz Manaflıdır.



Konsertdə gənc musiqiçilər dünya estradasının klassik əsərlərini və məşhur Yeni il kompozisiyalarını ifa ediblər.

Səhnədə Nərgiz Manaflıdan başqa vokalçılar Leys İzzi və Meq Əsəd, pianoçu Nigar Əsədullayeva və nağara ifaçısı Arif İmanov çıxış ediblər. Proqramda Cövdət Hacıyev adına 3 nömrəli Musiqi məktəbinin "Divizi" xorunun gənc artistləri (bədii rəhbər Aytən Cəfərova) və "Kristal şou" rəqs qrupunun rəqqasları (bədii rəhbər Liana Azurova) da iştirak ediblər.

# Turizm sənayesi: ötən ilin yekunları və yeni çağırışlar

Yanvarın 11-də Bakı Konqres Mərkəzində Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının (ATAA) təşkilatçılığı ilə "Turizm sənayesi subyektlərinin ilin yekunları və COP29 ərəfəsində çağırışlar" mövzusunda forum keçirilib.

Forumda çıxış edən ATAA idarə heyətinin sədri Göydəniz Qəhrəmanov 2023-cü ilin ölkə turizminin inkişafı üçün uğurlu il olduğunu və turizmin qeyri-neft sektorunun bir qolu olaraq xüsusi mərkəzə çevrildiyini bildirib. Ümummilli lider Heydər Əliyevin turizmə ayırdığı xüsusi diqqət və qayğı sayəsində bu sahənin təşəkkül tapdığını söyləyən sədr deyib: "Prezident İlham Əliyev turizm sahəsini daha da inkişaf etdirir. Bu, turizm sahəsinin beynəlxalq aləmə inteqrasiyasını təmin edir".

Qeyd olunub ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a 2024-cü ildə Bakıda keçiriləcək. Bu mötəbər beynəlxalq tədbirə ev sahibliyi Azərbaycanın turizm sənayesi qarşısında da yeni çağırışlar qoyur.

Azərbaycan Hotel Assosiasiyası idarə heyətinin sədri Eldar Əlimuradov qeyd edib ki, Prezident İlham Əliyevin sahəyə xüsusi diqqəti sayəsində 2011-ci ildən sonra turizmin inkişafı yeni mərhələyə qədəm qoyub. Azərbaycanda bir çox beynəlxalq hotel brendləri təmsil olunur. Hazırda ölkəmizdə 757 hotel fəaliyyət göstərir: "2003 - 2019-cu illərdə Azərbaycana səfər edən əcnəbilərin sayı 3 dəfə artıb. 2019-cu ildən etibarən pandemiya hotelçilik industriyasına böyük zərbə vurub. Bir çox hotellər karantin hotellər kimi fəaliyyət göstərirdi. Postpandemiya dövründə hotelçilik sahəsi yenidən canlanmağa başladı".

Forumda Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının baş katibi Tural Musayev, Azərbaycan Turizm Blogerləri Assosiasiyasının rəhbəri Azər Qəribov da çıxış ediblər.

Forum işini "Turizmin inkişafında biznes-dövlət əməkdaşlığı, son 20 il ərzində əldə edilən uğurlar" və "COP29 ərəfəsində imkanlar və çağırışlar, turizm sənayesindən gözləntilər" adlı panel müzakirələrlə davam etdirib.

Forumda turizm sənayesində ixtisaslaşmış assosiasiyaların birgə bəyanatı da qəbul edilib. Bəyanatda dövlət başçısı İlham Əliyev tərəfindən aparılan siyasətə tam dəstək ifadə olunub.

"Biz – turizm sənayesində ixtisaslaşmış assosiasiyalar olaraq, ölkəni qələbədən-qələbəyə aparan Prezident İlham Əliyevlə fəxr etdiyimizi bəyan edirik. Ulu öndər Heydər Əliyevin yolu ilə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin siyasətini tam dəstəkləyirik. İlham Əliyev qalib xalqın qalib lideridir!" – deyə bəyanatda vurğulanır.

# Ankaralı arşınmalçı

## Üzeyir Hacıbəylinin ölməz əsəri yenidən Türkiyə paytaxtında səhnəyə çıxır

Xəbər verdiyimiz kimi, Üzeyir Hacıbəylinin şöhrəti dünyanı dolaşan "Arşın mal alan" operettası Ankara Dövlət Opera və Balet Teatrında növbəti dəfə tamaşaya qoyulub. Premyerası yanvarın 13-nə nəzərdə tutulan səhnə əsərinə Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru Hafiz Quliyev yeni quruluş verib. Rejissor bundan əvvəl 2003 və 2013-cü illərdə də Ankara teatrında "Arşın mal alan"ın quruluş müəllifi olub.



Əsərin mətn üzrə redaktoru Ankara Dövlət Opera və Balet Teatrının solisti və Hacettepe Universiteti Dövlət Konservatoriyasının müəllimi Şenol Talınlıdır.

O deyib: "Arşın mal alan" operettası Ankara Dövlət Opera və Balet Teatrının səhnəsində ilk dəfə 1985-ci ildə nümayiş etdirilib. Bunun ardından 2003-cü ildə teatr rəhbərinin müavini Bülənt Ateşoğlunun layihəsi əsasında əsər yenidən səhnəyə qoyuldu. O vaxt operettanın Azərbaycan dilində oynanması da Ateşoğlunun ideyası idi. Bundan sonra proses davam etdi və məsləhətləşmələrimizə başladıq. Türk və Azərbaycan dillərinin bənzərliyinə baxmayaraq, Türkiyə sənətsevərlərinin əsəri tam başa düşmələri üçün mətnin yazılmasına qərar verildi. Bunun ardından iki-üç həftə ərzində mən bu mətni hər iki dildə istifadə edilən sözlərin əsasında hazırladım və "Arşın mal alan" təxminən yetmiş faizi Azərbaycan dilindən ibarət bir libretto ilə yenidən Türkiyə tamaşaçısının qarşısına çıxdı".

Qeyd edək ki, tamaşada arşınmalçı Əsgər obrazını Şenol Talınlı ifa edəcək. O bildirib ki, 2003-cü ildən səhnəyə qoyulan operettanın bütün tamaşaları anşlaqla keçib. Tamaşaya bilet tapmaq mümkün deyildi: "İndi olduğu kimi, o vaxt da əsərin rejissorluğu Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru Hafiz Quliyevə həvalə edilmişdi. Orkestrin dirijorluğunu Mustafa Erdoğan etmiş, dekorasiya isə Yusuf Toker tərəfindən hazırlanmışdı. Sonra "Arşın mal alan" operettası eyni heyətlə 2013-cü ildə yenidən Türkiyədə səhnələşdirildi".

Ş.Talınlı deyib: "Arşın mal alan" operettasının yanvarın 13-də keçiriləcək premyerası eyni dekorla və yenə Hafiz Quliyevin rejissorluğu ilə bir daha Ankara Dövlət Opera və Balet Teatrının səhnəsində nümayiş etdiriləcək. Ötən ilin dekabr ayında yenidən məşqlərimizə başladıq və çox böyük həvəslə davam edirik. Bu dəfə tamaşanın orkestr rəhbəri Rüstəm Rahmedovdur. Fikrimcə, çox gözəl alınıb. Artıq ilk iki tamaşa üçün nəzərdə tutulan bütün biletlər satılıb. Bu da bir əsrdən çox keçməsinə baxmayaraq, insanların dahi Üzeyir Hacıbəyli və dünyaca məşhur "Arşın mal alan" əsərinə olan marağının ən böyük göstəricisidir".

# Bakı Dövlət Sirki bir müddət fəaliyyət göstərməyəcək

## Texniki nasazlıqlar aradan qaldırılır

Teatr və konsert müəssisələrinin təmir və bərpası dövlət tərəfindən diqqətdə saxlanılır, tamaşaçıların mədəni xidmətlərə əlçatanlığının təmin edilməsi üçün işlər görülür. Mədəniyyət müəssisələrində, xüsusilə kütləvi nümayiş məkanlarında tamaşaçıların təhlükəsizliyi isə ən vacib məsələdir.

Mədəniyyət Nazirliyi teatr və konsert müəssisələrində tamaşaçıların rahatlığı və təhlükəsizliyi üçün risklər yarandığı halda müvafiq dövlət qurumları ilə birgə təxirəsalınmaz tədbirlər həyata keçirir.

Bu günlərdə Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri paytaxtın iritutumlu mədəniyyət müəssisələrindən olan Bakı Dövlət Sirkinə baxış keçirib. Binada müəyyən texniki nasazlıqlar aşkar edilib və müvafiq göstərişlər qeyd olunub.

Mədəniyyət Nazirliyi tərəfindən həmin nasazlıqlar aradan qaldırılanadək binada kütləvi tədbirlərin keçirilməməsi ilə bağlı qərar qəbul olunub və bu barədə Bakı Dövlət Sirkinə müvafiq tapşırıqlar verilib. Yanvarın 7-dən sirkin fəaliyyəti müvəqqəti dayandırılıb. Binada işlər yekunlaşdırıldıqdan sonra sirk yenidən qapılarını tamaşaçılara açacaq.



Qeyd edək ki, Bakı Dövlət Sirki SSRİ dövründə tikilən unikal memarlığa malik bu bina 1967-ci ildən fəaliyyət göstərir.

# Baş planın reallaşması necə baş verəcək?

əvvəli səh. 1-də

E.Qasımzadə qeyd edib ki, ali tədris müəssisələrinin də Bakıdan çıxarılması və onlar üçün kampusların tikilməsi barədə fikirlər səsləndirilir. Bu ideya Bakının Baş planının əvvəlki redaksiyalarında da olub: "Amma bunu həyata keçirmək o qədər də asan deyil. Çünki sözügedən tədris ocaqlarında çalışan professor, müəllim heyəti hər gün uzaq məsafə qət etməli olacaqlar. Bu, əslində böyük problemdir. Odur ki, Azərbaycan paytaxtının kənara köçürülməsi yanlış fikirdir".

Bakının Baş planı təsdiq edildikdən sonra ən çox müzakirə mövzusu olan paytaxtda tramvay nəqliyyatının bərpasına da toxunan E.Qasımzadə Baş planda qeyd olunan qərarın lehinə olduğunu açıqlayıb: "Əslində, etiraf etməliyik ki, tramvayın olub-olmaması Bakının inkişafına o qədər də böyük təsir göstərmir. Amma bir Bakı sakini olaraq düşünürəm ki, Avropanın və dünyanın bir çox qədim şəhərlərində olduğu kimi, Bakıda da tramvay olmalıdır, tramvayı bərpa etmək vacibdir. Bilirəm ki, dövlət tərəfindən bu istiqamətdə hansısa addımlar atılır. Tramvay yaxşı nəqliyyat vasitəsidir və öz yolu ilə gedir. Ona görə də avtomobilin hərəkətinə o qədər də mənfi təsir göstərmir. Avtobuslar üçün isə xüsusi yollar salınmasına baxmayaraq, yenə də küçənin ortası ilə avtomobillərlə bərabər hərəkət edirlər. Bu, problem yaradır. Amma tramvay heç bir problem yaratmayacaq. Sakinlər üçün cəlbedici bir nəqliyyat vasitəsidir. Ona görə tramvayın bərpasının tam tərəfdarıyam".



Baş planda yer alan yaşıllaşdırma planlarına da toxunan AMİ sədri Bakının yaşıllaşdırılması proqramının 1971-ci ildə Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdən Azərbaycan Kommunist Partiyasının və Nazirlər Sovetinin birgə qərarı ilə planlaşdırıldığını qeyd edib. Onun sözlərinə görə, Bakıda yaşıllıqların artırılması sahəsində son 50 ildə çox böyük işlər görülüb.

"Çox təəssüf ki, bəzi yaşıllıq massivlərində ağaclar qırılıb, tikililər aparılıb. Amma Bakının yaşıllaşdırılması problemi bu gün dövlət başçısının diqqət mərkəzindədir. Son illərdə bir neçə böyük yaşıllıq sahəsi yarandı: Füzuli küçəsi boyu Mərkəzi Park, dənizkənarı bulvarın genişlənməsi və s. Gələcəkdə bulvarın uzunluğu 21 kilometrə qədər çatdırılacaq və Baş planda bu, əlbəttə ki, nəzərdə tutulub. Ümumiyyətlə, Baş planda Bakının bir sıra yenidənqurmaya məruz qalacaq ərazilərində də yeni yaşıllıq sahələrinin salınması nəzərdə tutulub. Baş plan konkret tikililərin aparılması üçün olan sənəd deyil. Baş plan şəhərin inkişaf konsepsiyasını müəyyənləşdirən, istiqamətlərini göstərən və ən vacib problemlərin həllini təklif edən bir sənəddir. Bu plan 2040-cı ilədək olan müddətə tərtib olunub. Bu müddətə isə 16 il qalıb. Bu müddətdə ola bilər ki, hansısa yeni fikirlər, təkliflər yarana bilər. Bu o demək deyil ki, o fikirləri biz saxlamalı və yalnız 2040-cı ildən sonra tətbiq etməliyik. Biz şəhərin xeyrinə olan hər bir sağlam təklifi və fikri istifadə etməliyik və vaxtında yerinə yetirməliyik", – deyə E.Qasımzadə vurğulayıb.

Qeyd edək ki, Əməkdar memar E.Qasımzadə 1989 - 2001-ci illərdə Bakı şəhərinin baş memarı, Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və şəhərsalma üzrə baş idarəsinin rəisi vəzifələrində çalışıb.

# Klassik əsər yeni baxışda

Gəncə Dövlət Dram Teatrı premyeraya hazırlaşır. Teatrın baş rejissoru Elşad Əhmədovun traktovkasında Əbdürrəhim bəy Haqverdiyevin klassikləşən "Pəri cadu" əsəri səhnəyə qoyulub.




Metamorfozik faciənin quruluşçu rəssamı Mirzə Hüseynovdur. Rolları Əməkdar artistlər Sevda Orucova, Kəmalə Məmmədova, həmçinin aktyorlar Günay Xanlarqızı, Sevinc Hüseynova, Ruslan Hüseynov, Emil Salmanov, Elmir Məmmədov ifa edirlər.

Teatrın bu il üçün tamaşa planı da rəngarəngdir. Sənət ocağının səhnəsində il ərzində türkiyəli müəlliflər Toyqun Orbayın "Şərəfinə insanoğlu", Birgül Gülər Yeşiloğlunun (Türkiyə) "Qadınlar danışarsa", bundan əlavə, Vilyam Şekspirin "Venesiyalı tacir" və Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" əsərlərinin yeni quruluşlarını görmək mümkün olacaq.

# Qusar teatrından xəbər

Qusar Dövlət Ləzgi Dram Teatrının 2024-cü il üzrə repertuar planı zəngindir.




Janr, mövzu və tamaşaçı auditoriyasına görə fərqli əsərləri səhnəyə gətirən yaradıcı heyət bu dəfə yerli müəlliflərdən Mirzəli Rüstəmovun "Yeni müdir" komediyasına (rejissor Faiq Qardaşov) müraciət edib. Tamaşanın məşqləri başlayıb.

Uşaqları da unutmayan teatr təmsilçiləri Vüqar Haqverdiyevin "Saçları səməni oğlan" əsərinin tamaşasını (rejissor Bağır Əhmədov) Novruz bayramı günlərində təqdim edəcəklər.

Növbəti səhnə işi böyük dramaturq Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti-mərdi-xəsis" əsərinin tamaşası (rejissor F.Qardaşov) olacaq.

Avqsenti Saqarelinin məşhur "Xanuma"sı isə (rejissor Bağır Əhmədov) bu ilin planında son tamaşa kimi nəzərdə tutulub.

Bunlardan başqa, teatr kollektivi rayon miqyaslı mədəni tədbirlər, xüsusi təqvim günləri ilə bağlı tamaşa-kompozisiyalar da hazırlayacaq.

# Naxçıvanda xeyriyyə konserti

Naxçıvan MR Mədəniyyət Nazirliyinin təşkilatçılığı və "Naxçıvan qaziləri" İctimai Birliyinin təşkilatçılığı ilə yanvarın 10-da Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında xeyriyyə konserti keçirilib.



Əvvəlcə Ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Prezidentin Naxçıvan MR-də səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxışında şəhid ailələri, qazilər, müharibə veteranları ilə keçirilən bu cür görüşlərin əhəmiyyətini qeyd edib.

Vətən müharibəsi şəhidi Şükür Hacıyevin anası Fatma Şükürlü konsertin təşkilində əməyi olan hər kəsə təşəkkür edib.

Konsertdə Naxçıvan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblı, rəqs kollektivləri çıxış edib. Nurlan Ordubadlı və Elvin Nasir vətənpərvərlik ruhunda mahnılar oxuyublar.

# Gəncə Filarmoniyasında "Muğam gecələri"

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası "Muğam gecələri" adlı yeni layihəyə başlayır.

Fevralın 28-də layihə çərçivəsində Xalq artisti, ustad xanəndə Mənsum İbrahimov Gəncədə ilk dəfə solo konsert proqramı ilə çıxış edəcək.

Xanəndəni tarda Xalq artisti Elçin Həşimov, kamançada Əməkdar artist Elnur Əhmədov, nağarada Əməkdar artist Kamran Kərimov müşayiət edəcək.

Biletləri Gəncə Dövlət Filarmoniyasının kassalarından, eləcə də iticket.az saytından əldə etmək olar.

"Muğam gecələri" layihəsinin media tərəfdaşları arasında "Mədəniyyət" qəzeti də var.

# Naxçıvan MR-in 100 illiyi ilə bağlı tədbirlər planına dair müzakirələr aparılıb

AMEA Rəyasət Heyətinin iclasında ölkə başçısının "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli sərəncamının icrasından irəli gələn vəzifələr haqqında müzakirələr aparılıb.




AMEA-nın prezidenti akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, sərəncamda müvafiq dövlət qurumlarına və AMEA-ya Naxçıvan Muxtar Respublikasının 100 illiyinə dair tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb. Naxçıvan tarixən Azərbaycanın həm də mühüm elm və təhsil mərkəzlərindən biri olub, Azərbaycana çox sayda görkəmli ziyalı, elm və mədəniyyət xadimləri bəxş edib.

Bütün digər sosial-iqtisadi sahələrdə olduğu kimi, Naxçıvanda elmin inkişafında da Heydər Əliyevin mühüm xidmətləri olub. Bu baxımdan 2002-ci ildə AMEA-nın Naxçıvan Bölməsinin yaradılması xüsusi əhəmiyyətə malikdir. Bölmə ötən müddət ərzində Naxçıvanın qədim tarixinin, zəngin mədəni mühitinin, görkəmli klassiklərimizin, dərin köklərə malik folklorumuzun, arxeologiya və etnoqrafiyanın öyrənilməsi və s. istiqamətlərdə uğurla fəaliyyət göstərib.

İclasda Rəyasət Heyəti tərəfindən Ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu siyasəti və Naxçıvanın sosial-iqtisadi, mədəni-mənəvi inkişafı, müstəqilliyin ilk illərində Naxçıvanın erməni təcavüzündən qorunmasında Ulu öndərin tarixi xidmətləri, Prezident İlham Əliyevin dövlət siyasətində Naxçıvanın iqtisadi, elmi-mədəni, infrastruktur və hərbi potensialının gücləndirilməsi və inkişaf etdirilməsi strategiyasına uyğun geniş tədbirlər planının hazırlanması qərara alınıb.

# Görkəmli dilçi alimin 95 illiyi ilə bağlı tədbir

Yanvarın 10-da Masallı rayon Mərkəzi Kitabxanasında görkəmli dilçi-alim, türkoloq, pedaqoq, ictimai xadim, akademik Afad Qurbanovun (1929 – 2009) anadan olmasının 95 illiyi münasibətilə tədbir keçirilib.



Qeyd olunub ki, Afad Qurbanov müasir Azərbaycan əlifbasının müəllifi və onomastika elmi məktəbinin banisi kimi tanınıb. O, uzun illər təkcə Azərbaycan dili materiallarını deyil, həm də başqa türk xalqlarının dillərini əhatə edən mövzular üzrə tədqiqatlar aparıb, diqqətəlayiq elmi əsərlər ərsəyə gətirib.

Afad Qurbanovun əsərləri Almaniya, Rusiya, İran, Türkiyə, Qazaxıstan, Türkmənistan, Özbəkistan və s. ölkələrdə nəşr olunub. Tanınmış alim bir sıra ölkələrdə keçirilən elmi konfranslarda ölkəmizi layiqincə təmsil edib.

# "Qərbi Azərbaycandakı izimiz, sözümüz"

AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi filologiya üzrə fəlsəfə doktoru Tacir Səmimi (Qurbanov) və tarixçi Anar Hüseynovun həmmüəllifi olduqları "Qərbi Azərbaycandakı izimiz, sözümüz" kitabı çapdan çıxıb.




İnstitutdan bildirilib ki, kitabda əzəli və əbədi torpaqlarımız olan Qərbi Azərbaycanın Amasiya (Ağbaba) rayonunun Təzə İbiş və Qoncalı kəndlərində yaşayan Bayraməlilər tayfasının tanınmış adamları, tayfanın hikmət və kəramət sahibi olan şəxsləri haqqında məlumat və xatirələr verilib, aşıq və el şairlərinin şeirləri, bölgəyə məxsus folklor örnəkləri təqdim olunub.

Kitabın redaktoru filologiya üzrə fəlsəfə doktoru Nigar Həsənovadır.

# Müasir cəmiyyətdə Azərbaycan qadınının rolu

Masallı rayon Heydər Əliyev Mərkəzində "Azərbaycan qadını müasir cəmiyyətin inkişafına əvəzsiz töhfələr verir" mövzusunda görüş keçirilib.

Mərkəzin direktoru Dilbər İbayeva bildirib ki, Azərbaycan qadını öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutub. Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə töhfə veriblər. Qeyd olunub ki, bu gün də qadınlarımız maarifçilik və xeyriyyəçilikdən tutmuş milli, mədəni-mənəvi dəyərlərin qorunması və təbliği istiqamətində öz fəaliyyətlərini davam etdirirlər.

Fəal qadınların iştirak etdiyi görüş diskussiya şəklində davam edib.

# Vətən müharibəsi şəhidinin xatirəsi yad olunub

Lənkəran şəhər Heydər Əliyev Mərkəzində "Tariximiz qürurumuzdur" layihəsi çərçivəsində Vətən müharibəsi şəhidi Baloğlan Əhədlinin doğum gününə həsr olunmuş "Şəhidlər bizim qürur yerimiz, fəxrimizdir" adlı anım mərasimi keçirilib.



Tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, şəhid ailələrinin üzvləri, qazilər, Vətən müharibəsi iştirakçıları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları mərkəzin foyesində şəhidin şəxsi əşyaları və fotoşəkillərindən ibarət sərgi ilə tanış olublar.

Çıxış edənlər Vətən yolunda canından keçib şanlı tarix yazan qəhrəmanlarımızın qəlblərdə yaşayacağını bildiriblər. Şəhidin valideynləri və döyüş yoldaşları Baloğlan Əhədli ilə bağlı xatirələrini bölüşüblər.

Bədii hissədə B.Əhədlinin vaxtilə təhsil aldığı Lənkəran rayon Gəgiran kənd tam orta məktəbi şagirdlərinin ifasında şəhidə həsr olunmuş ədəbi-bədii kompozisiya təqdim edilib, videoçarx izlənilib.

Qeyd edək ki, Baloğlan Əhədli 2002-ci il yanvarın 10-da Gəgiran kəndində anadan olub. Vətən müharibəsi zamanı Şuşa istiqamətindəki döyüşlərdə şəhid olub. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", Qubadlı, Füzuli və Şuşanın azad olunmasına görə medalları ilə təltif edilib.

# Sabirabadda "İkinci həyat" adlı kitab sərgisi

Yanvarın 12-də Sabirabad şəhərindəki "Hophopnamə" kitab mərkəzində "İkinci həyat" adlı kitab sərgisi keçiriləcək.




Sərgi 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə əlaqədar reallaşacaq.

Sabirabad Rayon İcra Hakimiyyəti, Mil-Muğan Regional Mədəniyyət İdarəsi, Regional Təhsil İdarəsi, Regional Gənclər və İdman İdarəsi, "Hophopnamə" kitab mərkəzi və "Mücrü" nəşriyyatının təşkilatçılığı ilə keçiriləcək sərginin məqsədi regionlarda mütaliəyə olan marağın artırılmasıdır.

Sərgidə yer alacaq bütün kitablar 1-2 manatlıq simvolik qiymətlə satışa çıxarılacaq.

## Mədəniyyətə könül verənlər

# "Xalq şairi Nəbi Xəzri mənə yaradıcılıq xeyir-duası vermişdi..."

Hər bir insanın həyata baxış bucağı fərqlidir. Şair və yazıçılar da həyata tamam ayrı bir pəncərədən baxırlar. Hadisə və faktları obrazlı şəkildə ifadə edən qələm adamları insanın estetik zövqünü cilalayır, onun mənəvi-əxlaqi baxımdan yetkinləşməsində, dünyagörüşünün zənginləşməsində rol oynayırlar.

Ötən il başlatdığımız "Mədəniyyətə könül verənlər" rubrikasını davam etdiririk. Bu dəfə şair, kitabxanaçı Nübar Eldarqızı (Fərəcova) haqqında söz açacağıq.

Nübar Fərəcova 1959-cu il dekabrın 10-da Sabirabad rayonunun Axtaçı kəndində anadan olub. Bakı şəhərində fəaliyyət göstərən N.K.Krupskaya adına Kitabxanaçılıq Texnikumunu bitirib. 1977-ci ildə Sabirabad rayonu Şıxsalahlı kənd kitabxanasında əmək fəaliyyətinə başlayıb. Daha sonra indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində mədəni-maarif işinin təşkilatçı metodisti ixtisası üzrə təhsil alıb. Hazırda Sabirabad rayonu Şıxsalahlı kənd kitabxanasının müdiri vəzifəsində çalışır.

Müsahibim kitabı, kitab oxumağı sevdiyi üçün bu sahədə işlədiyini söyləyir: "Uzun illərdir ki, kitabxanamızda oxuculara kitabı sevdirməyə çalışırıq. Hazırda kitabxanamızda 10 minə nüsxəyə yaxın kitab var. Oxucularımızın sayı 550 nəfərdir".

Nübar xanım kitabxana sahəsində çalışmaqla yanaşı, uzun illərdir istedadlı qələm sahibi, şair kimi də tanınır. 2023-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan müsahibim hələ orta məktəbdə oxuduğu dövrdən yaradıcılığa maraq göstərib, ədəbi-bədii gecələrdə, müsabiqələrdə iştirak edib. İlk şeirini dördüncü sinifdə oxuyanda qələmə alıb: "Orta məktəbdə oxuyanda Əhməd Əliyev adlı müəllimimiz vardı. İlk şeirimi ona həsr eləmişdim. Dərc olunan birinci şeirim isə Vətən haqqında idi. 1977-ci ildə işıq üzü görüb".

Xalq şairi Nəbi Xəzri ona yaradıcılıq xeyir-duası verib: "Şeirlərimi Nəbi müəllimə göndərib fikrini soruşdum. O isə Azərbaycan Radiosunda haqqında gedən bir verilişdə şeirimdən misal çəkərək məni təriflədi. Bəlkə də bu, mənim yaradıcılıqla bağlı tərəddüdlərimə son qoydu. ADMİU-da təhsil alarkən tələbə yoldaşım şair Fikrət Şahbazlının təkidi ilə Məmməd İsmayılın başçılıq etdiyi respublika gənclərinin ədəbi birliyinin məşğələlərinə getdik.



O gün, demək olar ki, oradakı hər kəs şeirlərim haqqında çox gözəl fikirlər söylədilər. Bundan sonra "Gənclik", "Ulduz", "Azərbaycan" və digər jurnallarda, o dövrün aparıcı qəzetlərinin, demək olar ki, əksəriyyətində şeirlərim dərc edilirdi. "Dünyaya misra-misra baxıram" adlı televiziya verilişində haqqında söz açılan üç gənc şairdən biri də mən idim...".

Şairin "Məni sevməsəniz" adlı ilk şeirlər kitabı 2003-cü ildə işıq üzü görüb. Həm dövri mətbuatda nəşr olunan yazıları, həm də kitabı haqqında ədəbi mühitin tanınmış imzaları öz rəylərini bildiriblər. Filologiya elmləri doktoru, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Ədəbi tənqid şöbəsinin müdiri Vaqif Yusifli "Yollar hara aparır" və "Qayıdış" adlı yazılarında, "Bu şəkil ona bənzəyir" adlı xülasədə Nübar xanımın yaradıcılığı haqqında fikirlərini söyləyib. Bundan başqa, şair, ədəbiyyatşünas Sərvaz Hüseynoğlu, şair Sabir Sarvan, şair-publisist, "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələfli və başqaları da şairin yaradıcılığı haqqında yüksək fikirlər söyləyiblər.

2004-cü ildə Nübar xanımın sayca ikinci kitabı çap olunub. Müəllif kitab haqqında deyir: "Yaşadığım kənddə Seyid Həşim ağa adlı yaxşı bir qonşumuz vardı. Əsl el ağsaqqalı, bir sözü ilə küsülüləri barışdıran, örnək ailə başçısı. 2004-cü ildə onun haqqında publisistik bir kitab yazdım. Kitab sonradan bir neçə dəfə nəşr olundu".

Bu kitabdan sonra müəllifin yaradıcılığında bir müddət fasilə yaranır. Səbəbini isə özü belə ifadə edir: "Düzdür, yaradıcılıq təbi olurdu, amma yazmırdım, mahnı kimi iş görə-görə öz-özümə oxuyurdum. Çünki iş, ailə-uşaq qayğıları imkan vermirdi. Düşünürəm ki, qadın yazarlar üçün yazıb-yaratmaq, doğrudan da, əsl fədakarlıq istəyir. 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsi məni yenidən yazmağa "məcbur" elədi. Xeyli sayda vətənpərvərlik ruhunda şeirlər qələmə aldım. Ölkəmizin bir sıra mətbuat orqanlarında, eləcə də "Krımın səsi" qəzetində və saytlarda şeirlərim işıqlandırıldı".

Nübar xanım şeirlərində özünəməxsus, zəngin deyim-duyum nümayiş etdirir. 2021-ci ildə onun "Letargiya yuxusu" adlı sayca 3-cü kitabı işıq üzü görüb. Poemadan aşağıdakı misralara diqqət yetirək:

*Nə oldu, ay dərdiş,*
*yaman boğuldun,*
*Qosqoca dünyanın başı çiynində.*
*Sənə nə olmuşdu, şair doğuldun,*
*İndi gəl cənazə daşı çiynində...*

Müəllif şairliyin böyük məsuliyyətini qeyd edir, dünyanın dərd-qəmini daşımağa "məhkum olduğunu" bildirir.

Gələcək fəaliyyəti haqqında məlumat verən müsahibim yeni şeirlərdən ibarət kitab çap etdirməyi düşündüyünü deyir. Biz də ona işlərində və yaradıcılıq yolunda uğurlar arzulayırıq.

**Nurəddin**

# Kino aləmində baş verənlərdən xəbər tutmaq üçün

Azərbaycanda kino aləmində baş verənlərdən vaxtında xəbər tutmaq istəyənlər üçün kinoinfo.az xəbər saytı fəaliyyətə başlayıb.

Gənc Film İstehsalçıları Assosiasiyasının təsis etdiyi sayt ilk növbədə kino peşəkarlarına ünvanlanıb. Assosiasiyanın sədri Əli İsa Cabbarov bu sahədə fəaliyyət göstərən insanların ümumi kino mühitindən və bir-birindən xəbərsiz olduqlarını bildirir. Saytın "Qovluqda", "Meydanda", "Ekranda" bölümləri ölkəmizdə kino istehsalının hər üç mərhələsində baş verən yeniliklər haqqında oxucuları məlumatlandıracaq.

Əsas hədəflərdən biri iş adamlarını yerli kino istehsalı haqda məlumatlandırmaq və onları kinoya investisiya qoymağa sövq etməkdir. Bu məqsədlə kinonun iqtisadi aspektinə, statistikaya, kinoya aid maliyyə xəbərlərinə geniş yer ayrılacaq.

Sayt Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) maliyyə dəstəyi ilə fəaliyyətə başlayıb. Əli İsa Cabbarov bu dəstəyə görə ARKA-ya minnətdarlığını bildirib.

Azərbaycan Kinematoqrafçılar İttifaqı da sayta təşkilati dəstək göstərib. Saytın redaktoru Ramil Ələkbərov, layihənin rəhbəri Əli İsa Cabbarovdur.

# Kinorejissor Şamil Mahmudbəyov haqqında sənədli film çəkiləcək



Bu il görkəmli kinorejissor, Əməkdar incəsənət xadimi Şamil Mahmudbəyovun (1924 – 1997) anadan olmasının 100 illik yubileyidir. Yubiley münasibətilə sənətkarın həyat və yaradıcılığını əks etdirən sənədli film çəkiləcək.

Azərbaycan Kinematoqrafçılar İttifaqının dəstəyi ilə ərsəyə gələcək ekran əsərinin ssenari müəllifi Tahir Tahiroviç, rejissoru Aydan Əhmədova, operatoru Rafiq Əliyev, prodüseri Əli İsa Cabbarovdur. Filmin çəkilişləri yanvar ayının sonunda başlanacaq.

Tahir Tahiroviçin bildirdiyinə görə, əsas çəkilişlər rejissorun dünyaya gəldiyi Naxçıvan şəhərindəki evində, təhsil aldığı məktəbdə aparılacaq. Rejissorun filmlərində iştirak etmiş aktyorların və birgə çalışdığı yaradıcı heyət üzvlərinin xatirələri də ekran əsərində yer alacaq.

Şamil Mahmudbəyov "Qaraca qız", "Romeo mənim qonşumdur", "Şərikli çörək", "Həyat bizi sınayır" və s. filmlərə quruluş verib. Kinorejissor "Şərikli çörək" filminə (1969) görə yaradıcı heyətlə birlikdə Azərbaycan Dövlət mükafatına layiq görülüb.

# "İstedadın çalarları" fiziki məhdudiyyət tanımır





Azərbaycan Milli İncəsənət Muzeyi fiziki məhdudiyyətli uşaq və gənclərin muzey həyatına, sosial və mədəni mühitə cəlb edilməsi istiqamətində Uşaq İnkişaf Mərkəzi ilə birlikdə yeni layihəyə başlayıb.

Yanvarın 10-da İncəsənət Muzeyində "İstedadın çalarları" adlı layihənin təqdimatı olub.

Tədbir çərçivəsində gənc rəssamlar Fuad Musayev və Aytac Quliyevanın sərgisi açılıb və ölkəmizdə Daun sindromlu yeganə tarzən Bəhram Rahimlinin konsert proqramı təqdim edilib.

Bəhram Rahimlinin anası Mehparə xanım oğlunun tara marağının kiçik yaşlardan başladığını deyib: "Bəhramın musiqi savadı yox idi, lakin müəllimi Vüsal İskəndərzadə onu həvəsləndirirdi. Bəhram notları bilmir, amma sırf yaddaşla ifa edir. Bu gün burada ilk konsertini verir".

Azərbaycan Milli İncəsənət Muzeyi direktorunun müavini Nəzrin Şirinova, Əməkdar artist, tarzən Vüsal İskəndərzadə və Bəhram Rahimlinin psixoloqu Murad Musayev fiziki məhdudiyyətli uşaqların cəmiyyətə inteqrasiya olunmasından danışıblar.

Bəhram Rahimlinin tarda ifası tamaşaçılara xoş ovqat bəxş edib. Konsert proqramında, həmçinin Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdi, bir sıra müsabiqələr laureatı Jalə Musayeva fortepiano musiqiləri səsləndirib.

Tədbir çərçivəsində gənc rəssamlar Fuad Musayev və Aytac Quliyeva tərəfindən 3 nömrəli Respublika xüsusi internat məktəbinin uşaqları üçün ustad dərsi keçirilib.

Sağlamlıq imkanları məhdud olan uşaq və gənclərin yaradıcı qabiliyyətlərinin üzə çıxarılması, dəstəklənməsi, cəmiyyətdə tanıdılması məqsədi daşıyan layihə hər ay keçiriləcək.

# Gəlməyəcək qatarı gözləmək kimi...

Heç vaxt gəlməyən, gəlməyəcək, nə bilmək olar, bəlkə də gələcək qatarı bu dəfə "Yuğ"çular "gözləyirlər".

Bəli, Yuğ Dövlət Teatrında türkiyəli dramaturq, məşhur beyin cərrahı Toyqun Orbayın Azərbaycan teatr cameəsinə yaxşı tanış olan "21:15 qatarı" tamaşasının məşqləri gedir.

Səhnə əsərini teatrın baş rejissoru, maraqlı quruluşları ilə bundan əvvəl də öz yaradıcılıq imkanlarını ustalıqla nümayiş etdirən Mikayıl Mikayılov hazırlayır.

Rolları Xalq artisti Məmmədsəfa Qasımov (Kişi sərnişin), Əməkdar artistlər Gülzar Qurbanova (Qadın sərnişin), Fərhad İsrafilov və Sonaxanım Mikayılova (Vağzal bələdçisi) ifa edəcəklər.

Tamaşanın quruluşçu rəssamı Mustafa Mustafayev, rejissor assistenti isə Günel Səfərovadır.

Müəllifin bu birpərdəli pyesi 2002-ci ildə qələmə alınıb və Türkiyə daxil olmaqla bir neçə ölkənin teatr səhnəsində fərqli yozumlarda sənət ömrü yaşayıb.

Bizdə bundan öncə Akademik Milli və Şəki Dövlət Dram teatrlarında tamaşaya qoyulan əsərə özünəməxsus poetikası olan "Yuğ"da necə baxılacağını ilk olaraq özüm üçün ayırd etməkdən ötrü məşq prosesini izləmək qərarına gəldim.

Öncə onu deyim ki, məşq prosesi xoş, dinc təəssürat yaratdı və bir anlıq da olsa, bizi yarıqaranlıq, kiçik zaldakı cansıxıcı söhbət ortamından (pyesdə yetəri qədər ağır həqiqətlər dönə-dönə ifadə olunur deyə) alıb xəfif mehin müşayiətində xəzəllərin xışıltısında "gəzintiyə aparır". Bu qədər poetik təəssüratın bir səbəbi də, sözsüz ki, Məmmədsəfa – Gülzar cütlüyünün gəlməyəcəyini bildikləri qatar üçün keçirdikləri intizarlı gözlənti və bunu 15-16 yaşlı gənc qız ilə oğlanın sadəlövhlüyündə ustalıqla əritməklə əzizləmələridir.

Keçək əsərə. Burada biz adi vağzalın təsviri ilə qarşılaşırıq. Qoca vağzal bələdçisi öz işinin başındadır. Yəqin ki, həyatının da tək qayəsi məhz bu vağzal və onun sərnişinləridir. Skamyada əyləşən kişi də çox rahatdır. Ətrafda baş verib-verməyən heç nə vecinə deyil. Gah kitab, gah qəzet vərəqləyir, gah da qulaqcıqda musiqi dinləyir. Bu dəm bir qadın özünü yetirir və bütün tör-töküntüsü ilə sükutu pozur. Dəyişməyən saat əqrəbləri üzərindən gəzişməklə hər şeyi dünyanın mərkəzi halına gələn vağzalda yaşayıb, yaşatmaq istəyir. Təbii ki, anladığı kimi...

Məşqi izləyə-izləyə özlüyümdə rejissorun məhz bu əsərə nəyə görə müraciət etməsinə dair ştrixlər də tapdım. Çünki əsərdə həm "Yuğ" poetikası, həm absurd teatrın elementləri sezilir. Bundan əlavə, işin mənim üçün ən böyük dəyəri "Yuğ"un yaradıcıları olan aktyorların bir tamaşada məşğul olmasıdır və bu mənada, tamaşa mənim üçün daha dəyərlidir".



Lap Samuel Bekketin Qodosunun intizarı kimi burada da bir intizar, gözlənti hakimdir. Özü də rejissor və aktyorun əsər üzərindən ifadəsində.

Fasilədə əsər və ona verdiyi yozum barədə danışan M.Mikayılov deyir ki, müəllif mənim özüm üçün çox maraqlıdır: "Onun mükəmməl cərrahlığı fərqli yaradıcılıq üslublarına bağlanmasına da yol açıb. Bilirsiniz, onun valehedici, dərin qatlı rəsm nümunələri də var. Müəllif kimi də çox fərqlidir. Ona əsərinə quruluş verəcəyimi deyəndə çox sevindi. Bununla bağlı uzun söhbət etdik.

Qatar bələdçimiz həm də qadındır. Mənim üçün məmur qəribə personajdır. Burada o obrazı Fərhad müəllimlə yanaşı, Sona xanım da oynayır".

Ümumiyyətlə, tamaşada baş verən hər şey təkrarlanır. İnsanlar öz problemlərində, travmalarında ilişib qalıblar və əslində, çıxış yolu da yoxdur. Onlar tənha və bədbəxt insanlardır, həm də bir-birlərinə ehtiyacları var. Ən dəhşətlisi odur ki, onlar bu gerçəyi anlamırlar. Anlamaya-anlamaya da qatar bələdçisinin "Qatar platformaya yaxınlaşır!" xəbərdarlığının intizarında qulaqbatıran səssizliklərinin "ərməğanı" tənhalıqlarında itib-batırlar.

Yaradıcı heyəti fərqli ovqata kökləyən əsərin baş qəhrəmanı – Kişi sərnişin M.Qasımov obrazı haqqında təəssüratlarını belə ifadə etdi: "Mənim yaradıcılığımda bu, tamamilə fərqli bir rol olacaq. İstər görüntü, istər düşüncə, istərsə də yanaşma baxımından.

Qatarı gözləyə-gözləyə öz məhkumiyyətlərindən arınmağa çalışan Qadın sərnişin Gülzar Qurbanovanın fasilədə də tamaşanın, prosesin təsirini üzərindən atmadığı bariz sezilir: "Biz bu həyata məhkumuq. Eyni günü, eyni şeyləri yaşayırıq. Təqvimlər dəyişsə də, hadisələr, vərdişlər, münasibətlər,



bəzən də düşüncələr, hisslər öz girdabında çapalayır. Heç nə baş vermir və biz bu qayda-qanunlar qutusunun içindəyik. Azadlığımız yoxdur. Qaçaqaç-qovhaqovun içində özünü müəyyənləşdirmək, seçimini etmək də müşkül olur. Əslində, insan olaraq hər birimizə seçim imkanı verilib. Sadəcə, həyatımız həm də gözləməklə keçir deyə daim bu nigarançılığın, gərginliyin içində özümüzün nə istədiyimizi anlaya bilmir və xaosa sürüklənirik. Mənə elə gəlir ki, bu əsər bizi özümüzlə baş-başa qalmağa vadar edir və onda anlayırıq ki, biz azad hiss və düşüncələrimizi, istəklərimizi ifadədə gecikirik. Nəticədə də bu gözlənti içində ölümü, hətta ondan sonranı da gözləməklə ötürürük həyatımızı...".

Bu tamaşada ilk dəfə qadın aktrisanın ifasında görəcəyimiz Vağzal bələdçisi S.Mikayılova isə obrazı, hələlik dialoqa çalışdığı qəhrəmanı haqqında deyir: "Bu qatarın bələdçisi adi bir insan deyil. O, mistik bir şəxsdir. Gah var, gah da yox. Hələ də axtarışdayam. Burada onun cinsiyyətinin fərqi yoxdur. Heç əsərdə də bilinmir ki, bu qadındır, ya kişi. Amma hər ikimiz, sözsüz ki, rejissorun vahid quruluş xəttində, öz aktyor ştrixlərimizi də qatmağa çalışırıq. Konkret olaraq mən qəhrəmanımı qara qüvvə kimi görürəm və onu "Əgər başqalarına əziyyət vermək istəyirsənsə, onları daim gözlət"mək kimi missiya ilə göndərilmiş mif olaraq hiss edirəm.

F.İsrafilov da qəhrəmanı haqqında təxminən eyni təəssüratdadır. Amma o, oyununa, səhnədəki bələdçisinə bir az ümid də qatıb: "Mənim bələdçim mistik, maraqlı, güclü, hətta bir az da əyləncəli adamdır. Belə olmasaydı, gəlməyən qatarının sərnişinləri də olmazdı. Burada daha fərqli, incə bir məqam da var; insan son gününə qədər ümid edir, ümidi tükənəndə də ölür. Hər birimiz bu hisslə yaşayırıq. Elə qatarı gözləmək ümidi və əminliyində olanlar kimi. Çətin, ağır əsərdir. Amma maraqlıdır. İnanıram ki, tamaşaçı da bizə qoşularaq əsərdə, ondan çıxış edərək həyatında, hisslərində, onu əhatə edən dünyada nə isə axtaracaq və tapacaq".

Müəllif T.Orbay "Mən özüm seyrçi olsaydım, o qatarı ölüm kimi dəyərləndirərdim. Ancaq mənə görə, ölüm yoxdur. Ölüm olduğunda mən onsuz da olmayacam. Ona görə də qoy hər kəs istədiyi kimi yozsun" desə də "Yuğ" veteranları və gənc quruluşçu ona bir az da ümid, yolun sonundakı işıq kimi də baxıblar. Getdikcə öləzisə də, sönməyən işıq kimi...

**Həmidə Nizamiqızı**

Heydər Əliyev – 101

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçmələrin dərcini davam etdiririk.

## İllərin xronikasından (91)

### 2000-ci il 24 may

Prezident Heydər Əliyev Gəncə şəhərinə səfəri gedişində Nizami Gəncəvinin məqbərəsini ziyarət edib, şəhər sakinləri qarşısında nitq söyləyib.

*"...Bu məqbərənin tarixi böyükdür. İlk dəfə burada, Nizami Gəncəvinin qəbri üzərində abidə 1948-ci ildə tikilibdir. O vaxtlar Nizami Gəncəvinin 800 illik yubileyi keçirilirdi. Ancaq o vaxt yaranmış məqbərə Nizamiyə layiq deyildi. İkincisi, siz yəqin xatırlayırsınız, gəncəlilər bilir ki, burada yaxınlıqda gil-torpaq kombinatı tikildi. Kombinatın işləməsi üçün əsas xammal alunit idi, texnologiyası da çox yüksək səviyyəli deyildi. Ona görə də orada – gil-torpaq kombinatında alunitin işlədilməsi zamanı toz çıxırdı və Nizami Gəncəvinin məqbərəsini də toz basırdı. Bu, bizi narahat edirdi...*

*Gəncənin ətrafında nə qədər istəsən yer var, onu harada istəsəniz tikmək olardı. Onu yaradanlar da bilirdilər ki, bu istehsal elədir ki, toz buraxır. Onu bizim ən böyük, ən müqəddəs tarixi abidəmiz olan Nizami Gəncəvinin qəbrinin, məqbərəsinin yanında yerləşdirmək, mən deyərdim ki, vaxtilə mənəvi cinayət olmuşdur... Ancaq nə etməli? O vaxt gərək ya bu müəssisəni dağıdaydıq – bu da mümkün deyildi, çünki Sovet İttifaqının böyük tikintilərindən biri idi, – ya da, deyirdilər ki, əgər bu mümkün deyilsə, tədbir görün, Nizami Gəncəvinin məqbərəsini başqa yerə köçürək. Onu da etmək mümkün deyildi, bunu da etmək mümkün deyildi. Biz neçə illər bu əziyyəti çəkdik. Sonra burada texnologiya dəyişildi, əsasən boksitə keçildi. Boksiti Qvineyadan alırdıq. Biz bunlarla illərlə məşğul olmuşuq...*

*...Görürəm ki, bura da tərtəmizdir. Yəqin ki, mən gəldiyimə görə təmizləməmisiniz, həmişə belə təmizdir... Nizaminin məqbərəsini qorumaq bizim müqəddəs vəzifəmizdir. Siz də bunu etməlisiniz, biz də etməliyik. Gərək elə olsun ki, indiki nəsil də, gələcək nəsil də vaxtilə buraxılmış səhv kimi səhvlər buraxmasınlar.*

*...Nizami Gəncəvinin 840 illik yubileyini Azərbaycanda, sonra Moskvada çox təntənə ilə keçirdik. O vaxt, yubiley ərəfəsində də qərar verdik ki, buradakı məqbərə yenidən qurulsun, Nizamiyə layiq bir səviyyəyə çatdırılsın. Mən məmnunam ki, bunu etdik. Amma indi baxanda hesab edirəm ki, bundan da yaxşı edə bilərdik. Güman edirəm, əgər vaxt çatsa, biz bunu edəcəyik. Amma vaxt çatmasa, gələcək nəsillər bu məqbərəni bundan da gözəl edəcəklər. Mənim buna şübhəm yoxdur...".*

### 2000-ci il 27 may

28 May – Respublika Gününə (2021-ci ildən Müstəqilik Günü – red.) həsr olunmuş mərasimdə nitq söyləyib. Mərasimin bədii hissəsi – konsert başa çatdıqdan sonra səhnə arxasına keçib, incəsənət ustaları ilə görüşərək söhbət edib.

*"...Mən bu gün çıxış edəndə bütün Azərbaycan vətəndaşlarını təbrik etdim. Eyni zamanda təşəkkür edirəm ki, siz bu gün yenidən çox gözəl bir konsert göstərdiniz və hamımızı sevindirdiniz. Bu gün böyük bayramdır, bizim əziz bayramımızdır. Bu sevinci daha da çox artıran sizin bu gözəl çıxışlarınız, sənət nümunələrinizdi...*

*Bu gün də çıxışımda dedim, – bundan sonra imkanımız daha da çox olacaqdır. İqtisadiyyatımız inkişaf edir, gəlirimiz artır, bundan sonra daha da çox artacaqdır. Nə qədər ki, çox artacaq, o qədər də birinci növbədə mədəniyyətə sərf olunacaqdır. Çünki mədəniyyət hər şeydən üstündür...".*

### 2000-ci il 17 iyun

Çuvaşiyanın Xalq yazıçısı, Ümumçuvaşiya İctimai Mədəniyyət Mərkəzinin prezidenti akademik Mişşi Yuxmanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

*"...Siyasi Büronun üzvü, (SSRİ) Nazirlər Soveti sədrinin birinci müavini olanda çox səfərlər edirdim. Amma ən çox Rusiyanı gəzməyə çalışırdım. Yadımdadır, axşam sizin milli ansambl konsert verdi. Mən sizin rəqslərinizi, mahnılarınızı xatırlayıram... Mahnıları da çuvaş dilində oxuyurdular, ifa edilən rəqslər də çuvaş rəqsləri idi...*

*...Mənə xoşdur ki, siz "Dədə Qorqud"un 1300 illiyində də olmusunuz. Bu, çox yaxşıdır. Bizim Polad Bülbüloğlu, TÜRKSOY-un sədri bu yaxınlarda mənə dedi ki, Çuvaşiyada TÜRKSOY-un növbəti iclası keçirilmişdir. TÜRKSOY çox mühüm rol oynayan təşkilatdır. Çünki indi xalqlarımızın tarixi köklərinin bərpası ən çox mədəniyyət, ədəbiyyat, tarix vasitəsilə həyata keçirilməlidir... İqtisadiyyat hər yerdə iqtisadiyyatdır... Ancaq mədəniyyəti, dili, adət-ənənələri artıq heç kim dəyişə bilməz. Elm, texnika nə dərəcədə inkişaf etsə də, nə kimi sıçrayışlar edilsə də, hətta Marsa uçsalar da, xalqların qədim ənənələri heç vaxt ləğv oluna bilməz.*

*...Türk xalqlarının, o cümlədən də çuvaş xalqının necə qədim, zəngin tarixi, zəngin sivilizasiyası var. Mən şadam ki, sizdə dirçəliş prosesi gedir...".*

### 2000-ci il 23 iyun

Rusiyanın tanınmış modelyeri Valentin Yudaşkini və azərbaycanlı modelyer Fəxriyyə Xələfovanı qəbul edib.

*"...Tarixən elə olub ki, hər bir xalqın öz geyim forması olmuşdur. İndi dünyada qəbul edilmiş geyim forması isə Avropada yaranmışdır. Bununla belə, keçmiş zamanlarda çox gözəl şəxsi geyim formaları olub və indi də tətbiq edilə bilər. Həmin geyimi indi biz ancaq teatrda və ya kinoda görürük. Yeri gəlmişkən, bizim yaxşı teatr rəssamlarımız olub, onlar müxtəlif tamaşalar, xüsusən də keçmiş tariximizə aid tamaşalar üçün eskizlər veriblər, – bunlar qalmışdır. Azərbaycanda gözəl, çox gözəl qadın geyimi olmuşdur... Onu modernləşdirmək olar... Onda dünyada rəngarənglik olar. Yoxsa ki, indi təkcə Avropa modasını əsas götürmüşlər. Şəxsən mən azərbaycanlı kişilərin keçmiş vaxtlarda geyindikləri paltar formasına qayıtmaq istəməzdim. Qadın geyiminin isə çox gözəl və cürbəcür olduğunu, zənnimcə, bilirsiniz – kataloqlar, kitablar var...".*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

# “Bu il “Mədəniyyət Yolu” festivallarına Azərbaycan sənətçilərini də dəvət edəcəyik”

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini doktor Batuhan Mumcu ilə iki ölkənin mədəni əlaqələrinə yeni töhfələr verə biləcək addımlar barədə danışdıq.

*– Batuhan bəy, keçən ilin noyabrında Ankarada ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlığa dair saziş imzalandı. Bu sahədə nə kimi yeniliklər gözləmək olar?*

– Türkiyə-Azərbaycan mədəni əməkdaşlığına dair saziş iki ölkə arasında, eləcə də Türk dünyasında əlaqələrin gücləndirilməsi, maddi-mədəni sərvətlərin yayğınlaşdırılması, ortaq tarix və dəyərlərin inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Bu sənəd vasitəsilə mədəniyyət sahəsində müxtəlif tədbirlərlə daha sıx əməkdaşlığa nail olmağı hədəfləyirik. Saziş əsasında keçiriləcək konsertlər, sərgilər, teatr tamaşaları və ədəbi tədbirlər kimi mədəniyyət fəaliyyətləri iki ölkə arasında qarşılıqlı əlaqəni artıracaq və Türk dünyasının mədəni zənginliyinin daha geniş auditoriyaya çatdırılmasına kömək edəcək. Sözügedən mədəni tədbirlər eyni zamanda hər iki ölkənin turizm potensialını artıracaq və bu da öz növbəsində ölkələrimizin iqtisadiyyatına töhfə verəcək.

*– Azərbaycanda keçirilən III “Qorqud Ata” Türk Dünyası Film Festivalı ilə bağlı təəssüratlarınız necədir?*

– “Qorqud Ata” festivalı artıq Türk dünyasının önəmli mədəniyyət layihələrindən birinə çevrilib. Bu il festivalın bağlanış mərasiminə Türkiyədən ssenarist, rejissor, prodüser və aktyorlarla birlikdə TRT-nin və nazirliyimizin rəsmiləri olaraq qatıldıq. Kino sənayesi Türk dünyasının ortaq mədəni irsinin çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən festivalda iştiraka marağın ildən-ilə artdığını görmək bizi çox sevindirir. İnanıram ki, kino sənayesinin maraqlı tərəflərini bir araya gətirmək və əməkdaşlığı təşviq etmək həm kino sənətini təkmilləşdirəcək, həm də qarşılıqlı mədəni əlaqəni maksimum dərəcədə artıracaq.



“Qorqud Ata” festivalının dördüncüsü bu il Türkmənistanda keçiriləcək.

*– 2023-cü ildə “Türkiyə Mədəniyyət Yolu Festivalları” daha geniş miqyas aldı. Bu layihəyə Azərbaycanda da maraq var...*

– “Türkiyə Mədəniyyət Yolu Festivalları” ölkəmizin hər yerində keçirilən konsertlərdən sərgilərə, opera və balet tamaşalarına, panel müzakirələrə, seminarlara qədər minlərlə tədbiri əhatə edən silsilədir. Bu il festival silsiləmizə azərbaycanlı sənətçiləri də daxil etməyi planlaşdırırıq. İncəsənətin müxtəlif sahələrini təmsil edən insanların festivallarda iştirakı Azərbaycan mədəniyyətinin daha yaxından tanıdılmasına imkan yaradacaq. Bu şəkildə iştirak festivalın keçirildiyi şəhər və ya bölgələrdə mədəni zənginliyimizi vurğulamaqla yanaşı, həm də iki ölkə arasında mədəni turizmi qarşılıqlı surətdə stimullaşdıracaq.

*– Məlum olduğu kimi, Prezident İlham Əliyevin sərəncamı ilə Türkiyədəki səfirliyimizin nəzdində Azərbaycan Mədəniyyət Mərkəzi yaradılır. Sizcə, mərkəzin fəaliyyəti iki qardaş ölkə arasında mədəni əlaqələrə hansı yeniliklər gətirə bilər?*

– “Bir millət, iki dövlət” olan Azərbaycanla Türkiyə arasında artıq hər sahədə gözəl əlaqələr mövcuddur. Türkiyədə Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılması, təbii ki, mədəni əlaqələrimizi, əməkdaşlığımızı daha da inkişaf etdirəcək, mədəniyyət tədbirlərinin həm sayı, həm də keyfiyyəti yüksələcək. Mədəniyyət, incəsənət, ədəbiyyat, mənəviyyat sahəsində fəaliyyətlər hər iki ölkənin müvafiq sektorundakı nümayəndələrinə də dəstək olacaq. Bu mərkəzdə təşkil olunan mədəni-kütləvi tədbirlər gənc nəsillərimizdə də ümumi mədəni irsimizə mənsub olmaq hisslərini inkişaf etdirməkdə mühüm rol oynayacaq.

İnanıram ki, ortaq tarix, dil və mədəni irsə əsaslanan bu əməkdaşlıq Türk dünyasının digər ölkələri ilə də oxşar şəkildə təzahür etməyə təkan verəcək. Bir sözlə, Azərbaycanla olan mədəni əlaqələrimizin inkişafı digər türk dövlətlərinə də öz müsbət təsirini göstərəcək.

**Mehparə Sultanova**
**Ankara**

# “Peşəmin zirvəsində olanda kinodan getdim”

## “Ad günü” filminin nisgili hələ də məni tərk eləmir...”

O, dekabrın son günü – 31-də doğulub. Elə görüşümüz, söhbətimiz də ilin son günlərinə təsadüf etdi. 75 yaşını illərin yolayrıcında qeyd edən, səssiz-səmirsiz adam təsiri bağışlayan Əməkdar incəsənət xadimi, kinooperator və fotoqraf Rafiq Qəmbərov. Deyəsən, müsahibə verməklə heç arası yoxdur. Amma biz cəhd elədik...

*– Rafiq müəllim, bildiyimə görə, əsl adınız Rəfaeldir. Necə “Rafiq” oldunuz? Bir də niyə müsahibə verməyi sevmirsiniz?*

– Mən “Rafiq”ə daha çox öyrəşmişəm. Bilirsiniz də, kino adamları bir-birinin adını ya ixtisarla, ya da hansısa ayama ilə çəkirlər. Rəhmətlik Rasim Ocaqov mənə “Rafiq” deyirdi. Belə də qaldı, doğmalaşdı. Müsahibələrə gəlincə, mənə elə gəlir ki, eyni şeyləri söyləmək heç kimə maraqlı deyil.

*– Rasim Ocaqovun beş bədii filmində işləmisiniz. O özü də rejissorluğa operatorluqdan gəlmişdi. Tanışlığınız nə vaxta gedib çıxır?*

– Bu suala cavabı uzaqdan “götürəcəm”. 1970-ci ilin yazı idi. Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun 4-cü kursunda təhsil alırdım. Bir gün dedilər ki, Eldar Quliyev ilk bədii filmi olan “Bir cənub şəhərində”ni öz ustadı, dünyaşöhrətli Sergey Gerasimova göstərəcək. Həmin nümayiş üçün müxtəlif fakültələrdə oxuyan azərbaycanlılara da icazə verdilər ki, müzakirədə iştirak etsinlər. “Bir cənub şəhərində”yə baxdıq. Ön cərgədə Eldar müəllim və Gerasimov oturmuşdu. Film bitən kimi biz azərbaycanlılar böyük alqış qopardıq. Sonra Gerasimov üzünü Eldar Quliyevə tutub dedi: “Sən super, əla film çəkmisən. Amma bil ki, bu filmin taleyi çox çətin olacaq. Peşəkar rejissor kimi sənə bir qeydim var: sən bu filmdə üç final yaratmısan. Yəni bir final edə bilməmisən. Filmin üç yozum finalı var. Amma filminin ən böyük uğuru yüksək səviyyəli operator işidir”. Filmin quruluşu operatoru Rasim Ocaqov idi.

Həqiqətən, filmin taleyi ağır oldu, bir müddət ekrana buraxılmadı. Sonra rəhmətlik Heydər Əliyevin müdaxiləsi ilə filmin taleyi dəyişdi.

Yeri gəlmişkən deyim ki, Rasim Ocaqovun yaradıcılıq tərcümeyi-halında quruluşçu operator kimi hamısı da bir-birindən gözəl, maraqlı və fərqli 10-dan çox film var. Amma “Bir cənub şəhərində” filminin məxsusi yeri var.

*– Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda təhsilinizdən söz açdınız. Bu təhsil ocağına düşmək çətin idi?*

– Mən qəbul olunan il bir yerə 47 nəfər sənəd vermişdi. Mən uşaqlıqdan fotoqrafiyaya maraq göstərirdim. Keçmiş Pionerlər sarayında 11 il bu sənət üzrə bilik almışdım. Arzumun arxasınca üz tutdum Moskvaya. Rəhmətlik atam böyük bacımı da mənə qoşdu və az miqdarda pul verdi. Şərti də kəskin oldu: qəbul olunmasan, Moskva arzuna son qoy. Sənədlərimi, qəbul üçün hazırladığım 30 ədəd müəllif fotomu da qoltuğuma vurub yol aldım müsabiqəyə. Qızmar yay günü idi. Özümü Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsinə yetirdim. Bakıdan gəldiyimi, burada təhsil almaq arzumu və çoxdan hazırladığım mətnimi oxuyub nəzarətçi xanımın üzünə baxdım. O və yanındakı bir neçə nəfər gülüşdülər. Pərt olsam da, özümü o yerə qoymadım. Gülüb qurtaran xanım, “Ay cavan oğlan, bu il qəbul yoxdur” deyəndə elə bildim dünya başıma fırlanır. Sən demə, qəbul 4 ildən bir imiş.

Kor-peşman geri dönəndə köşkdən bir neçə qəzet aldım. Birdən gözüm qəzetlərdən birindəki elana sataşdı: “Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda yaradıcı yarışmaya foto qəbulu davam edir”. Ertəsi gün institutu tapdım. Ağlıma da gəlməz ki, şənbə günü orada kimsə olmaz. Üstəlik, iyun ayının 23-ü, müsabiqənin son günüdür. Böyük foyedə tək dayanmışam. Bir kimsə yoxdur ki, nəsə soruşam. Enli pilləkənlərdən ucaboy, yaraşıqlı, mavi kostyumlu bir kişinin endiyini gördüm. Məndən nə istədiyimi soruşanda qısa əhvalatımı danışdım. Qəşş elədi. Dedi, yaxşı, gedək şəkillərinə baxım. Düşdüm arxasınca. Böyük masada üz-üzə oturduq, şəkillərimə baxır, mənə suallar verirdi. Peşəkar, sənətin incəliklərinə varan suallarına dilim topuq vura-vura cavab verməyə çalışıram. Yadımdadır, “Yəqin, bura qəbul olunmaq sənin qismətindir” deyib divarı döyəclədi. Gənc bir qız içəri daxil oldu. Ona “Bu cavan oğlanı otağa apar, anketi doldursun, tez gətir qol çəkim. “Mosfilm”ə getməliyəm. Tələsək, bu gənci imtahana buraxıram” deyəndə gözlərimdə yaş gilələndi. Qız otaqda mənə “Bilirsən o kimdir” sualını verdi. Çiyinlərimi çəkəndə dedi məşhur kinooperator Leonid Kosmatovdur. Təsadüflərlə dolu həyatımda bu da növbəti unudulmaz təsadüf oldu və mən o böyük sənətkarın kursuna düşdüm. Elə bil mənə dünyanı verdilər...

*– Heç operator olmaq istəmişdiniz?*

– Doğrusu, yox, istəməmişdim. Amma tale elə gətirdi ki, ömrümü bu sahəyə həsr elədim. Taleyimdən narazı deyiləm. Bilirsiniz, təsvirin müəllifi operatordur. O çalışır ki, ssenarinin, rejissorun fikrinin dramaturgiyaya uyğun vizual həllini tapsın. Təbii ki, onu rejissor və quruluşçu rəssamla da razılaşdırır. Bayaqkı fikrimə qayıdıram. Rasim Ocaqov “Bir cənub şəhərində” filmində operator sənətinin incəliklərindən xüsusi ustalıqla istifadə edib, çox gözəl bir təsvir dünyası yaradıb... “Azərbaycanfilm”in direktoru, böyük sənətkarımız Adil İsgəndərov onun da sənət yoluna işıq salmışdı. “Qatır Məmməd” filmi çəkilən zaman rejissor işi bəyənilməmiş, yarımçıq qalmışdı. Rəhbərlik Rasimi çağırır. Tələbi də belə olur: film üçün ayrılan vəsait xərclənib, təhvil vaxtına da az qalıb. Götür, çək. Rasim Ocaqov qısa müddətdə az büdcə ilə əsl imtahan verdi və işin öhdəsindən gəldi. Sonra da uğurlu filmləri bir-birini əvəzlədi. “Ad günü” filmini çəkəndə məni operator kimi dəvət etmişdi. Təəssüf ki, mən həmin dövrdə başqa filmdə məşğul olduğum üçün birgə çalışa bilmədik.

*– Təəssüf hissiniz hələ də keçməyib...*

– “Təəssüf” də sözdür?! Hələ də ürəyim qubar edir. O filmin təqdimatı 1977-ci ilin dekabrında Kino evində oldu. O zaman Kino evi indiki Hökumət evinin binasında yerləşirdi. Nümayişdən sonra həmkarlarımız filmi alqışlayıb geniş müzakirə etdilər. Mən Rasim müəllimə yaxınlaşmadım, gücüm çatmadı. Çox pərt olmuşdum.



Qəhər məni boğurdu. Kino evindən “Azneft” meydanına qədər piyada gəldim. Meydandakı saata baxanda gecə 12-nin yarısını göstərirdi. Bərk də sazaq idi. Onda ayıldım ki, ətrafdakılar diqqətlə mənə baxırlar. Mən də heç nəyin fərqində olmadan hönkürtü ilə ağlayıram. Aradan uzun illər keçsə də, o filmin nisgili məni tərk eləmir.

*– Amma onunla ilk işiniz – “İstintaq” filmi uğurlu alındı...*

– Kinostudiyanın qaynar günlərindən biri idi. Dedilər Rasim müəllim səni çağırır. Bu çağırışı eşidəndə sevindim. Bildim ki, nəsə təklifi var. Dialoqumuz qısa oldu və əlindəki qovluğu mənə uzadıb amiranə səslə “Al oxu, xoşuna gəlsə, çəkək”. Bu, “İstintaq” filminin ssenarisi idi...

*– Deyirlər, Rasim Ocaqov operatora işıq-kölgə həllində çox da imkan verməyib. Sizcə, operatorun işi filmdə qabarıq görünməlidir, yoxsa ümumi həllin içində əriməlidir?*

– Ümumi həllin içində əriməlidir. Əgər mənim sənətimdə nə isə nəzərəçarpacaq iş görünürsə, deməli, təbii alınmayıb. Kompozisiya hekayəni birlikdə çatdırmalıdır. Mən onunla tanış olandan sonuncu – “Həm ziyarət, həm ticarət” filminədək fasilələrlə 18 il işləmişəm. İlk gündən onu həmişə ustad kimi qəbul etmişəm və hər şeyi məsləhətləşmişəm. Mizan-kadrdan işıq həllinə qədər hər xırdalıqda son dərəcə peşəkar, məsləhətdə səxavətli idi.

*– Bu mənada, peşəkarla işləmək rahatdır, yoxsa çətin?*

– Həm rahat, həm də çətin. Axı peşəkardır, nə etdiyini bilir. Peşəkara işi bəyəndirmək də çətindir. İşlədiyimiz o uzun müddətdə bir dəfə də incikliyimiz olmadı. Nə də mən səhv etmədim. Ona daim minnətdaram, yeri behişt olsun.

*– Sizcə, Azərbaycan kinosunda təsvir həllində sadə forma üstünlük təşkil edir? Elədirsə, bu nədəndir: rejissorlarımız cəsarətsizdir, yoxsa kinoda daha çox aktyora, sözə fikir verirlər?*

– Rasim müəllimlə son filmimiz “Həm ziyarət, həm ticarət”dir. 1992-ci ildir, studiya da sovetlər kimi dağılıb, iş, qazanc yoxdur. Hər şey alt-üst olub. Onda 43 yaşım vardı. Dördnəfərlik ailə və ehtiyac burulğanı. Yeganə sənətim də operatorluqdur. Düzdür, foto sənəti ilə də məşğul olurdum. Amma əsas işim, iş yerim kino, kinostudiya idi. Bizim bütün qazancımız filmlə bağlı idi deyə, çəkmirdinsə, maaş da almırdın.

Bu ağır zamanda Rasim müəllim məni çağırdı: “Gəl, filmə başlayıram”. Sevindim, amma tərəddüdlərim də yox deyildi. Çünki ikincidərəcəli texniki işçilər əsasən qeyri-azərbaycanlılar idi və çoxu çıxıb getmişdi. Dedim, bu şəraitlə filmi necə çəkək? “Yarım ilini sərf elə, bu filmi çəkək, sonrasına baxarıq” dedi. Elə oldu ki, bu film sponsor hesabına başa gəldi, çəkilişlər də 6 ay yox, üç il vaxt aldı. Bəzi səhnələri Türkiyədə çəkdik.



Bilirsiniz necə əzablı idi? Bir dənə “Ariflex” deyilən alman istehsalı kameramız var, bir dənə də kiçik işığımız. 26 kiloqram çəkisi olan kameranı çiynimdə saxlayıram. Ştativim belə yoxdur. Nə isə, çəkdik, təhvil verdik. 1995-ci ilin avqustu idi. İçəri keçib Rasim müəllimdən icazə istədim. Ali dərəcəli operator, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi, təcrübəli operatoram. Yəni karyeramın ən yaxşı məqamındayam. Amma... Emosional ruhda “Rasim müəllim, qərarımı vermişəm, bir də film çəkməyəcəm” dedim və başımı aşağı saldım. Onun niyə sualına uzun cavab verdim, son işimizin əzablarını sadaladım. Təsdiqlədi. Hətta öz işimdən narazı qaldığımı da etiraf etdim. Burada günahımın olmadığı, yəni şəraitsizliyin səbəb olduğu vəziyyətdə də özümü günahkar saydım...

*– Yaxşı bəraət saymaq olar, amma kinodan üz döndərmək...*

– O lap ağır mövzudur, gəl, oralara getməyək (qəhərlənir).

*– Ustad rejissor sizdən asan vaz keçdi?*

– Uzun-uzadı mənə baxdı və dedi “Ay Rafiq, axı sən mənə “Rasim müəllim, studiyaya gəlmədiyim gün öləcəm” demisən. İndi, bu necə olacaq?” deyəndə “Bəli, elə də olacaq” dedim və qərarımda qəti olduğumu təkrar-təkrar dilə gətirdim. Nəhayət, ustad mənimlə razılaşdı, qərarıma hörmət elədiyini dedi və...

*– Siz kinostudiyadan getdiniz. Çətin oldu yəqin.*

– Həm də necə. Amma qərarımı vermişdim. Kinostudiyanın rəhbərliyinin otağına gedib ərizəmi yazdım. O an çox mənfi bir hal yaşandı ki, bunu heç vaxt unutmaram. Kinostudiyanın direktoru Ramiz Fətəliyev idi. Deputat idi deyə studiyaya az-az gəlirdi. Studiya da başlı-başına qalmış, sanki xarabaya dönmüşdü.

*– Bu sualım sizi incidə bilər, anlayıram. Amma soruşmaya bilmərəm: sizcə, milli kinonun çətin vəziyyətində onu atıb getməyiniz xəyanət deyildi?*

– Mən kinoya yox, özümə xəyanət, pislik elədim. İşsiz qaldım, özümdən, keçmişimdən, amalımdan, sənət dünyamdan qopdum. Artıq peşəmdə zirvədə idim. Təcrübəm, yaxşı filmlərim vardı. Təkcə 16 bədii filmdə ən yaxşı rejissorlar, necə deyərlər, qaymaqlarla işləmişdim. Amma qərarım qəti idi, getməliydim. O məqamda da Rasim müəllim “Otel otağı” filmində işləmək təklifi etdi, məni yolumdan döndərməyə çalışdı. Üstəlik, qonşum, işimə bələd olan Eldar Quliyev də mənə film təklif elədi. Hər ikisinə yox deməyə vadar oldum. Sözsüz ki, bir səbəb də kinostudiya rəhbərliyinin mənə naxoş münasibəti idi...

*– Və siz kinonu fotoqrafiyaya dəyişdiniz.*

– Demək istəyirsiniz ki, səhv elədim?

*– Yox, bu sizin qərarınızdır. Uzun illər Milli Məclisin fotoqrafı oldunuz.*

– Bəli. Mərhum spiker Murtuz Ələsgərovu çoxdan tanıyırdım, diqqətli insan idi. O zaman ölkəyə xarici şirkətlərin axını vardı. Mən də müstəqil olaraq onlarla işləyir və qonorar alırdım. Murtuz müəllim də məni o tədbirlərin birində gördü və çağırdı. Milli Məclisdə mükəmməl bir studiya quruldu, arxiv yığıldı. Durmadan işlədim və bir də başımı qaldıranda gördüm ki, 16 il keçib.

*– Gələk ağır dönəmdən keçən müasir kinomuza...*

– Kim ki, bu ərəfədə film çəkir, kinoya baş qoşur, o, qəhrəmandır. 3-4 film var, onlara baxanda özümə toxtaqlıq verə bilirəm.

*– Maraqlıdır, hansılardır?*

– Məsələn, “Çölçü”, “Haray”, “Buta”, “Nabat” və s. Hansı enerji ilə onları çəkiblər, bilmirəm. Amma yaxşı filmlərdir. Təəssüf ki, indi elə bil, proses getmir. Kinonun mövcudluğu üçün baza olmalıdır. Kino sahəsində dünya səviyyəsində işləməyə mütəxəssislər hazırlamamışıq. Dünya praktikasını bilən, Rusiyada, başqa ölkələrdə kino təhsili alan nəsil də artıq qocalıb, çoxu dünyadan köçüb. Gənclər isə, demək olar ki, ortada yoxdurlar. Axı maddi-texniki baza da yoxdur. Baza da, onunla işləyən kadrlar da paralel yetişməli idi...

*– Bir kadr minimum 5 ilə hazırlanır. Üstəlik, maddi-texniki baza da külli miqdarda dövlət vəsaiti deməkdir. Amma bu müddətdə proses də getməlidir axı.*

– Bəli. Dünyanın varlı ölkələrinin bir çoxunun kinostudiyası yoxdur. Götürək Danimarkanı, İsveçrəni. Onlar dünya səviyyəli studiya qurmağa pul-para sərf etmədilər. Əvəzində yaxşı kadrlar hazırladılar. Lazım olduqca kinostudiya icarəyə götürür və filmlərini orada çəkirlər. Yəni kinosuz qalmırlar. Bizdə də hələlik bu variantı sınamaq olar. Kino ilə bağlı onda da, indi də, sadəcə, müzakirələr, təkliflər, ağlabatan və batmayan ideyalar meydana atılır. Görək də...

*– İndi nə ilə məşğulunuz?*

– “Azərbaycan kinosunun kinooperator məktəbi” adlı kitab hazırlamışam, hazırda redaktədədir. Orada bütün operatorlar var. Bu mənim borcumdur. Çünki onlar mənim sənətimin bünövrəsini qoyublar.

*– Görmədiklərinizi saymasaq, dövrünüzün ən görkəmli operatoru kimdir sizcə?*

– Rasim İsmayılov. O bizim kinomuzun operator kimi kralıdır. Təkcə “Nizami” filmini götürsək, bəsdir. Hollivud operatorlarından bəzi məqamlarda çox-çox üstün peşəkarlığı, ustalığı vardı. Təəssüf ki, həyat yoldaşı, uzun illər kinostudiyada baş redaktor olan Nadejda xanım onu yolundan döndərib rejissor olmağa vadar elədi.

*– Görəsən, niyə?*

– Bir var rejissor arvadı olsan, bir də var operator (gülürük).

*– Yadıma “Beyin oğurlanması” filmindəki “Gül kimi operatorsan, rejissor olmaq istəyirsən. Görürsən də biz nə çəkirik” sözləri düşdü...*

– Hə, hə, “Elə sən kimilərdi də bizim qabağımızı kəsən”i deyirsinizsə, yox, qabağımızı kəsən olmadı (gülür). Amma, necə deyərlər, daş düşdüyü yerdə ağırdır. Rasimin məzar daşında yazılıb: “Rejissor Rasim İsmayılov”. Operator yox ha, rejissor. Nə isə, Allah rəhmət eləsin.

*– O zaman belə bir sual da verim: Azərbaycan rejissorlarının operatorla iş prinsiplərində zəif cəhətləri hansıdır?*

– Yaxşı sualdır, amma dolayı cavab verəcəm. Məncə, sənət də ailə kimidir. İşlədiyin adamlara sevgin, bağlılığın, səmimiyyətin olmalıdır. Düzdür, peşəkar öncə öz işinə fokuslanır, onu ən yüksək səviyyədə icra etməyə çalışır. Amma daxildən gələn sevgi, məhəbbət başqadır. İcra eləməklə işi görmək eyni, həm də fərqli şeylərdir. Rejissorla operator mütləq bir-birinə hörmətlə bağlanmalı, etibar, etimad göstərməlidir. Bunun əksi çətindir.

*– Siz həm də uzun illərdir foto sənətindən dərs deyirsiniz, həm də dərslik müəllifisiniz. Yeni nəsil operatorlar yetişirmi?*

– 20 ildən artıqdır ki, pedaqoq kimi də çalışıram. Hazırkı 7 nəfərlik qrupun hamısından çox razıyam. Onlar bala görə hansısa məqamda təhsildən kənarda qalmamaq üçün yox, sırf operator olmaq üçün seçiblər bu peşəni və sevə-sevə də öyrənirlər.

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

# Ülvi sənət eşqi – yarım kəsilən ömür





Ötən əsrin birinci yarısında Azərbaycan teatr səhnəsində görkəmli sənətkarlar çalışıb. Onlardan biri də yaradıcılığının coşqun çağlarında repressiyaya məruz qalan Əməkdar artist Ülvi Rəcəb olub. O, milli teatr tariximizin unudulmaz simalarındandır. Yaratdığı obrazlar çılğınlığı, incə lirizmi və təbiiliyi ilə diqqət çəkib.

Ülvi Rəcəb oğlu Şaşıqzadə 9 yanvar 1903-cü ildə Batumi yaxınlığında Canivri kəndində dünyaya göz açır. Rəcəb bəy dövrünün açıqfikirli, geniş dünyagörüşünə malik ziyalılarından olub. Oğlunu da elmli-savadlı görmək istəyir. Onu təhsil almaq üçün İstanbula – xalasının yanına göndərir. Lakin atasının vaxtsız vəfatı Ülvinin arzularını yarımçıq qoyur. Maddi çətinlik, güzəran onu təhsildən ayırır. Bir müddət İstanbulda qalır, çörəkpulu üçün ağır zəhmətlərə qatlaşır.

1918-ci ildə Ülvi Batumi şəhərinə qayıdır. Teatr kollektivlərinə yaxınlaşır və sənətə maraq göstərir. Həmin vaxtlarda Hüseyn Ərəblinski öz truppası ilə Batumiyə gəlir. Truppa "Otello" tamaşasını göstərir. Ülvi Rəcəb də həmin tamaşaya baxır. Hüseyn Ərəblinskinin yaratdığı Otello obrazına heyran qalır. Tamaşadan sonra sakitcə Hüseyn Ərəblinskiyə yaxınlaşır. Ona qəlbində boy atan arzularından danışır, aktyor olmaq istədiyini bildirir. İş elə gətirir ki, qastrola gələn truppa üzvlərindən biri xəstələnir. Ülvi Rəcəb həmin aktyorun əvəzinə bir epizodik rolda səhnəyə çıxır. Ona tapşırılan işin öhdəsindən bacarıqla gəlir. Bu, Hüseyn Ərəblinskini məmnun edir. O, gənc Ülvini ürəkləndirərək, "sən gələcəkdə böyük aktyor olacaqsan", – deyir.

Beləliklə, gənc Ülvi sənətdə addımlarını atır. Bir müddət sonra Tiflisdəki Azərbaycan teatrının aktyorlarından biri kimi tanınır.

Araşdırmalarda qeyd edilir ki, Tiflis Azərbaycan teatrının baş rejissoru Aleksandr Tuqanov 1924-cü ildə Bakıya dəvət edilir. İndiki Akademik Milli Dram Teatra baş rejissor təyin ediləndən az sonra Ülvi Rəcəbi də Bakıya çağırır. O, qısa vaxt ərzində istedadlı gənc kimi kollektivin sevimlisi olur. O, əvvəl-əvvəl Abbas Mirzə Şərifzadənin dublyoru kimi tamaşalarda çıxış edir. Tədricən truppada aparıcı aktyor kimi yerini tapır.



A.Tuqanov Ülvi Rəcəbin yaradıcılıq potensialına yaxşı bələd olduğu üçün onu həmişə baş rollarda görmək istəyib. O, teatrda Otello ("Otello"), Frans ("Qaçaqlar"), Dərviş ("Şeyx Sənan"), İxtiyar ("İblis"), Soltan bəy ("Arşın mal alan") və başqa rollarda çıxış edib.

Sənətşünaslıq doktoru, professor İlham Rəhimli unudulmaz aktyor haqda yazır: "Milli teatr tariximizdə Şeyx Sənanı incə lirizmlə oynayan ilk aktyor Ülvi Rəcəb olub. Tiflis Teatrından başlanan bu ənənəni Ülvi Rəcəb 1925-ci ildən 1937-ci ilə qədər Milli Dram Teatrının səhnəsində müxtəlif quruluşlarda daha böyük sənətkar vüsəti ilə canlandırıb".



Ü.Rəcəb eyni zamanda Bakı Türk İşçi Teatrının hazırladığı tamaşalarda da yaxından iştirak edir. Cəfər Cabbarlının "Sevil" tamaşasında yaratdığı Balaş rolu tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Bu rolda onun tərəf-müqabili Azərbaycan teatrının məşhur aktrisası Mərziyyə Davudova olub. Fatma Qədri ilə də işləyən Ülvi Rəcəb yaratdığı obrazların parlaqlığı ilə təkcə tamaşaçıların deyil, həmkarlarının da hörmətini qazanır. 1933-cü ildə onun teatr sənətindəki xidmətləri yüksək qiymətləndirilir. "Əməkdar artist" fəxri adını alır.

Repressiya dövrünün qara yelləri əsdiyi bir vaxtlarda "Kommunist" qəzetinin 30 sentyabr 1937-ci il tarixli sayında Azərbaycan Dövlət Dram Teatrı haqqında bir məqalə dərc edilir. Yazının müəllifi isə göstərilmir. Hədəf isə bu idi: "Azərbaycan Dövlət Dram Teatrını burjua nasionalistlərinin əlaltılarından təmizləməli". Ardınca həmin düşmənlərin siyahısı verilir. Onlardan biri də Ülvi Rəcəb olur. Onun haqqında belə yazılır: "Yaradıcılığı bir qəpiyə dəyməyən bu adam respublikanın Əməkdar artisti kimi şərəfli bir ada "nail" olmuşdur. O, xalq düşmənləri R.Axundov, Ə.Triniç, H.Nəzərli ilə sıx əlaqə saxlamış, xarici reaksion qəzetlər oxumuş, patefonda xarici plastinkalar çaldırmış, məişətcə pozulmuş, səhnəmizi Osmanlı, ərəb və fars sözləri ilə zibilləməyə çalışmış gənc kadrların inkişafına mane olmuşdur".

Bu iyrənc sözlərdən sonra Mirzəağa Əliyev, D.Saraplı, Möhsün Sənani, Fatma Qədri, Şəmsi Bədəlbəyli, R.Səidov və başqa tanınmış sənətkarların adları gəlir ki, onları da "xalq düşməni" damğası ilə, keçmiş xan və bəylərin əlaltıları kimi təqdim edirdilər...

Bundan sonra Ülvi Rəcəbin həyatında acı rüzgarlar əsir. O, 1937-ci ilin payızında həbs edilir. 1938-ci ilin yanvarında isə Bakıda güllələnir...

**S.Fərəcov**

# Serial, "sabun operası" və ya çoxseriyalı film?

## Milyonları ekran qarşısına "məhkum edən" audiovizual sənətə baxış

### Bir az tarixçə

Teleserialların sələfləri kinematoqrafın yaranmasından az sonra meydana gələn kinoseriallardır. Kifayət qədər uzunluqda kinoplyonka əldə etmək texniki cəhətdən mümkün olmayan dövrlərdə tamaşaçılara ya hissələrə ayrılmış böyük bir əhvalat, ya da ümumi qəhrəmanı olan ayrı-ayrı kinoəhvalatlar təklif edilirdi.

Radionun inkişafı radionovellalara meydan verdi. Yeri gəlmişkən, təsəvvürümüzdə xoşbəxt sonluqlu çoxseriyalı filmlərlə assosiasiya olunan "sabun operaları" təşbehi tamamilə müstəqim məna və tarixçəyə malikdir. Həm də televiziyadan əvvəl, radio dövründə təşəkkül tapıb. XX əsrin 30-40-cı illərində daha çox sentimental ev xanımları üçün nəzərdə tutularaq günorta saatlarında efirə gedən verilişlərin süjetinin inkişafı ən maraqlı yerində yarımçıq dayandırılır, ertəsi gün davam etdirilirdi. Belə radioseriallların günbəgün artan populyarlığına ən operativ reaksiya sabun və yuyucu toz istehsal edən edən şirkətlər tərəfindən olmuşdu – onlar radioseriallların sponsorları və əsas reklamçıları qismində çıxış etmişdilər. Məhz bu səbəbdən itiağıllı amerikalılar bu cür serialları "sabun operası" adlandırıblar. Radionovellalardan teleseriallara keçid dövrü 40-cı illərin sonu – 50-ci illərin əvvəllərini əhatə edir.

Teleserial – açıq sonluqlu, başqa sözlə, əksər hallarda final səhnəsinə malik olmayan, yaxud qismən tamamlanmış süjetli telefilmlər silsiləsidir. Hər bir serial istehsalçısının məqsədi tamaşaçını ekran qarşısında uzun müddət saxlamaqdır. Buna görə bədii keyfiyyəti yüksək olan seriallar azlıq təşkil edir.




Çoxseriyalı telefilm termini 1990-cı illərin əvvəllərinə qədər Almaniya və Rusiyada istifadə edilib. Belə telefilmlər tamamlanmış süjetə və seriyalar arasında güclü əlaqəyə malik olurlar. Belə telefilmlərin seriyaları az, silsilə daxilindəki telefilmlərin sayı isə qeyri-məhdud sayda ola bilər.

Serialların populyarlığı tamamilə asan, hətta bəsit rejissor yanaşması ilə bağlıdır. Biz hər hansı bir seriala istənilən seriyadan baxmağa başlaya bilərik və bu zaman süjet xəttinin qırıqlığı elə də hiss olunmaz.

Göründüyü kimi, hər bir çoxseriyalı filmin öz xassəsi, "hücrə"si, özünün yaranma tarixçəsi var. Və onların hamısını serial adlandırmaq qətiyyən doğru deyildir.

### Ekspert fikri

Kino və televiziya eksperti Nadir Bədəlov mövzuya əhatəli yanaşmağın tərəfdarıdır: "Fikirlərimi bu sahəyə münasibətimdən başlamaq istəyirəm: serial bekar adamlar üçündür və serial həm də adamları bekarçılığa sövq edir. Amma bu heç də mənfi münasibət deyil. XIX əsrdə bu gün klassik ədəbiyyat nümunələri sayılan əsərlər də serial formatında həftəlik qəzetlər üçün yazılıb. Dikkensin, Balzakın, hətta Dostoyevskinin, Tolstoyun əsərləri. Amma bu həftəlik qəzetləri tarlada, fabriklərdə işləyən adamlar oxumurdu, bu mətnlər burjuaziya uçün yazılırdı. Onlar oxuyur və düşünürdülər. Deməli, boş vaxt qiymətli anlayışdır, tarixi çevirmək qüdrətinə malikdir. Bugünkü seriallar bunu edə bilirmi? Mənim sevdiyim seriallar var. Məsələn, "Farqo", "Tvin Piks" və s. Bu seriallar və yaxud çoxseriyalı filmlər informasiya verir və düşündürür. Amma əksər seriallar melodramatik və ya yumoristik "köpüklərdən" ibarət olduqları üçün onlara sərf etdiyin vaxtı doğrultmur. Bu iştirakçılar hər həftə, bəzən hər gecə sənin evinə qonaq gəlir və bu, aylarla, illərlə davam edir. Və bir gün artıq marağın sönür, çünki maraqlandıra biləcək nəyisə tapmaqda müəlliflər də, qəhrəmanlar da çətinlik çəkirlər. Bir məşhur Amerika kinoşünası gözəl deyib: serial ürəksındıran janrdır".

### Vizual "vitaminlər"

İnsanın fiziki orqanizminə keyfiyyətli, vitaminlərlə zəngin qida zəruri olduğu kimi, mənəvi orqanizmi də keyfiyyətli yaradıcı məhsula ehtiyac duyur. Bu yerdə "aradabir beyin dincəlməlidir, yüngül, rahat filmlərə baxmalıdır, həmişə düşündürücü yaradıcı məhsullarla təmas yorucu ola bilir" arqumentini əsas götürənlərə bildirək ki, sizinlə tamamilə razıyıq. Amma "yüngül və rahat" təyini bayağı və zövqsüz təyinləri ilə sinonim təşkil etməməlidir – beyinlərin dincəlməsi yüngül və rahat audiovizual məhsul səviyyəli və zövqlü olduğu halda baş verə bilər. Əks halda bu, mədəmizi "fast-food"la doldurub aldatmağa bərabər bir aktdır.

### Nəticə varmı?

Əlbəttə, bu nəticə hələ son nəticə deyil. Amma mən də mövzu ilə bağlı bir qənaətimi bildirim: Türkiyə telerejissorlarından fərqli olaraq Azərbaycan rejissorlarında bu janr baxımlı alınmır. Situativ komediyaları istisna etməklə. Eyni qənaəti rusiyalı rejissorların da serial yaradıcılığına aid etmək olar. Onlardan söz düşmüşkən, "Sındırılmış fənərlər küçəsi" filminin quruluşçu rejissoru Dmitri Svetozarov sovet serialları ilə indiki Rusiya serialları arasındakı fərq haqqında danışarkən belə bir fikir yürüdüb: "Tələbatın təklifi aşkar üstələdiyi müasir televiziya şəraitində hər kəs rejissor adlandırıla bilər. Bizə isə sənətə şit və biliksiz kəsləri yaxın belə buraxmayan bədii şuralar epoxası üçün məyus-məyus xiffət etmək qalır...".

**Samirə Behbudqızı**

**P.S.** *Bu mövzunu hələ 12 il əvvəl müzakirə obyektinə çevirmişdik. Ötən müddətdə vəziyyət dəyişməyib. Səbəb həm də serial, çoxseriyalı film, "sabun operası" janrlarının eyni müstəviyə qoyulmasındadır. Bunu diqqətə almayan kinorejissorlarımız da az deyil. Hətta "nə fərqi var" deyə sual edənlər də var. Fərq olmasaydı bu təsnifat meydana gələrdimi? Dil yaradıcılığı əlifbadan başlayır. Kinonun da əlifbasına yaxşıca bələd olmaq zəruridir ki, hansı janrda film çəkdiyinin fərqində olasan...*

## Xatirə təqvimi — 12–16 yanvar

### Azərbaycan

**12 yanvar 1925** – Şair Əlisoltan (Əlisoltan Camal oğlu Ağəliyev; 1925–1982) Quba rayonunun Susay kəndində doğulub.

**12 yanvar 1928** – Ədəbiyyatşünas və sənətşünas, professor Gülrux Sabir qızı Əlibəyli (1928 – 15.2.2016) anadan olub. Estetika və bədiilik məsələlərinə dair tədqiqat əsərlərinin, povestlərin müəllifidir.

**12 yanvar 1940** – Xalq artisti, mahir klarnet ifaçısı Vəli Nurbala oğlu Qədimov (1940 – 15.4.2009) Bakıda anadan olub.

**12 yanvar 1994** – Populyar müğənni Hüseynağa Məmməd oğlu Hadıyev (19.11.1946 – 1994) vəfat edib. "Dan ulduzu" ansamblının solisti olub.

**12 yanvar 2017** – Prezident İlham Əliyev "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalayıb.

**12 yanvar 2017** – Əməkdar artist, kontrabas ifaçısı İlyas Hüseyn oğlu Hüseynov (22.9.1924 –2017) vəfat edib. Bakı Musiqi Akademiyasının professoru olub.

**12 yanvar 2021** – Əməkdar artist İsmayıl Ələkbərov (14.9.1939 – 2021) vəfat edib. Akademik Opera və Balet Teatrının solisti olub.

**13 yanvar 1894** – Xalq artisti Qriqori Mixayloviç Sorin (1894 – 10.1.1973) Rusiyanın Tver vilayətində anadan olub. Moskva teatrlarında çalışıb, 1946-cı ildən Azərbaycan Dövlət Rus Dram Teatrının aktyoru olub.

**13 yanvar 1897** – Dövlət xadimi, publisist, alim Ruhulla Əli oğlu Axundov (1897 – 21.4.1938) Bakının Şüvəlan kəndində doğulub. Tarix, incəsənət, ədəbiyyata dair əsərlərin müəllifidir, ikicildlik rusca-Azərbaycanca lüğətin redaktoru olub. Xalq maarifi komissarı, Azərbaycan KP-nin 2-ci katibi vəzifələrində işləyib. Repressiya edilib.

**13 yanvar 1909** – Tanınmış tarzən, xanəndə Şirulla İmanov (1909 – 4.2.1976) Bakıda doğulub. Opera və Balet Teatrının solisti olub, M.Maqomayevin "Şah İsmayıl", Z.Hacıbəyovun "Aşıq Qərib", Ü.Hacıbəylinin "Şeyx Sənan" operalarında vokal və tar ifaçısı kimi çıxış edib.

**13 yanvar 1912** – Əməkdar artist, vokalçı Hacıbala Ağahüseyn oğlu Hüseynov (1912–1967) Bakıda doğulub. Opera və Balet Teatrının solisti olub.

**13 yanvar 1945** – Əməkdar incəsənət xadimi, televiziya rejissoru Məhərrəm Əlisəftər oğlu Bədirzadə (1945 – 8.4.2021) Bakıda doğulub. 1971-ci ildən çalışdığı Azərbaycan Televiziyasında çoxsaylı tamaşa və filmlərə quruluş verib.

**13 yanvar 1992** – Əməkdar artist, vokalçı Kamal Həmid oğlu Kərimov (20.2.1925 – 1992) vəfat edib. Musiqili Komediya, Opera və Balet teatrlarında çalışıb.

**13 yanvar 1999** – Xalq artisti Barat Həbib qızı Şəkinskaya (28.6.1914 – 1999) vəfat edib. Akademik Milli Dram Teatrında, Gəncə teatrında çalışıb. "Görüş", "O olmasın, bu olsun", "Onun bəlalı sevgisi" və s. filmlərdə maraqlı obrazlar yaradıb.

**13 yanvar 2001** – Əməkdar incəsənət xadimi, tanınmış heykəltaraş Eldar Heydər oğlu Zeynalov (22.8.1937– 2001) vəfat edib.

**13 yanvar 2003** – Xalq artisti Mirzə Əbdülcabbar oğlu Babayev (16.7.1913 - 2003) vəfat edib. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Müğənnilik fəaliyyəti ilə yanaşı, filmlərdə ("Telefonçu qız", "Dərviş Parisi partladır" və s.) maraqlı obrazlar yaradıb.

**14 yanvar 1923** – Görkəmli teatr rejissoru, Xalq artisti Tofiq Səməd Mənsur oğlu Kazımov (1923 – 2.8.1980) Bakıda anadan olub. Gənc Tamaşaçılar, Rus Dram, Musiqili Komediya teatrlarında tamaşalar hazırlayıb. Akademik Milli Dram Teatrının baş rejissoru olub. "Antoni və Kleopatra" (V.Şekspir, 1965), "Şəhərin yay günləri" (Anar, 1979) əsərlərinin tamaşalarına görə Dövlət mükafatına layiq görülüb.

**14 yanvar 1952** – Məşhur şair Almas İldırım (İldırım Əbdülməhəmməd oğlu Almaszadə; 25.3.1907 – 1952) Türkiyənin Elazığ şəhərində dünyasını dəyişib. İstiqlal ruhlu şeirlərinə görə 1930-cu ildə Yazıçılar Birliyindən xaric edilərək Türkmənistana sürgün edilmiş, 1933-cü ildə İrana, oradan Türkiyəyə mühacirət etmişdi.

**14 yanvar 1982** – Şuşa şəhərində böyük şair Molla Pənah Vaqifin məqbərəsinin və Vaqif Poeziya evinin açılışı keçirilib. Mərasimlərdə respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev çıxış edib.

**14 yanvar 2015** – Prezident İlham Əliyev "Bəxtiyar Vahabzadənin 90 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalayıb.

**15 yanvar 1904** – Əməkdar artist Cabbar Əli oğlu Əliyev (1904 – 30.11.1973) Naxçıvanda doğulub. Akademik Dram Teatrının aktyoru olub, filmlərdə ("Qızmar günəş altında", "Qaraca qız" (Piri baba), "Görüş") çəkilib.

**15 yanvar 1907** – Aktyor, dramaturq, Əməkdar artist Məcid Baba oğlu Şamxalov (1907-1977) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. "Qayınana" komediyasının müəllifidir.

**15 yanvar 1914** – Yazıçı Ənvər Yusifoğlu (Qasımov; 1914 – 4.3.1989) Yevlax rayonunda anadan olub. 30-40-cı illərdə sürgün həyatı yaşayıb. Əsərləri: "Düşmənimin düşməni" (povest), "Cərrahlar" (roman) və s.

**15 yanvar 1923** – Azərbaycan Kommunist Gənclər İttifaqının (komsomol) orqanı – "Gənc işçi" qəzeti nəşrə başlayıb.

**15 yanvar 1936** – Yazıçı-publisist, tərcüməçi Vaqif Musa (Vaqif Məmmədyusif oğlu Musayev; 1936–1996) Quba rayonunun Rustov kəndində anadan olub. "Bəyim çayı boyunca", "Səhər mehi" və s. romanların müəllifidir.

**16 yanvar 1905** – Yazıçı Üm-əl-Banin (Ümmülbanu Mirzə qızı Əsədullayeva; 1905–1994) anadan olub. Neft milyonçuları Şəmsi Əsədullayevin və Musa Nağıyevin nəvəsidir. Azərbaycanın sovetləşməsindən sonra ailəsi ilə Fransaya mühacirət edib, fransız dilində yazıb: "Qafqaz günləri", "Sonuncu ümidin çağırışı" və s.

**16 yanvar 1944** – Tanınmış ədəbiyyatşünas, türkoloq, ictimai xadim Aydın Mirsaleh oğlu Məmmədov (1944 – 20.4.1991) Şəki rayonunun Kiş kəndində doğulub. Ali Sovetin deputatı olub. Deputat həmkarı Dilarə Əliyeva ilə birlikdə Qax rayonu ərazisində avtomobil qəzasında həlak olub.

**16 yanvar 2013** – Prezident İlham Əliyev "Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalayıb.

**16 yanvar 2014** – Prezident İlham Əliyev Xalq yazıçısı, görkəmli dramaturq İlyas Əfəndiyevin 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

### Dünya

**12 yanvar 1628** – Fransız nağıl yazıçısı Şarl Perro (Charles Perrault; 1628-1703) anadan olub. Əsərləri: "Çəkməli pişik", "Zoluşka" və s.

**12 yanvar 1876** – Amerika yazıçısı Cek London (Jack London – John Griffith Chaney; 1876 – 22.11.1916) San-Fransiskoda doğulub. "Martin İden", "Dəmir daban", "Dəniz canavarı" və s. romanların müəllifidir.

**13 yanvar 1931** – Rus yazıçısı, kinodramaturq Arkadi Aleksandroviç Vayner (1931-2005) anadan olub. Qardaşı Georgi Vaynerlə birgə detektiv əsərlərin müəllifidir.

**14 yanvar 1818** – Fin yazıçısı və şairi Zaxarias Topelius (1818-1898) anadan olub. "Ulduzların uşaqları" romanının müəllifidir.

**14 yanvar 1895** – Başqırd ədəbiyyatının banilərindən biri, şair Şeyxzadə Babiç (1895–1919) anadan olub.

**15 yanvar 1622** – Fransız dramaturqu Jan-Batist Molyer (Jean Baptiste Poquelin; 1622 – 17.2.1673) anadan olub. Avropa ədəbiyyatında klassik komediya janrının banisi sayılır. Əsərləri: "Tartüf", "Psixeya", "Zorən təbib", "Xəsis" və s.

**15 yanvar 1850** – Rumın ədəbiyyatının klassiki, şair Mixay Eminesku (Mihai Eminescu; 1850 – 15.6.1889) anadan olub.

**15 yanvar 1902** – Türk şairi, dramaturq Nazim Hikmət (1902 – 3.6.1963) anadan olub. Siyasi baxışlarına görə 1951-ci ildə SSRİ-yə mühacirət edib. Məzarı Moskvadadır. Ədibin "Məhəbbət əfsanəsi" pyesinin motivləri əsasında bəstəkar Arif Məlikov balet yazıb. Əsərləri əsasında "Yaşamaq gözəldir, qardaşım", "Bir məhəlləli iki nəfər" ("Azərbaycanfilm"), "Məhəbbətim, kədərim mənim" ("Mosfilm") filmləri çəkilib.

**15 yanvar 1931** – Dağıstanın, Rusiya Federasiyasının və keçmiş SSRİ-nin Xalq artisti, məşhur bəstəkar, dirijor, pedaqoq Murad Maqomedoviç Kajlayev (1931 – 23.12.2023) Bakıda anadan olub.

**16 yanvar 1749** – İtalyan şairi və dramaturqu Vittorio Alfieri (1749–1803) anadan olub. Əsərləri: "Kleopatra", "Orest", "Aqamemnon", "Mariya Stüart" və s.

**Hazırladı: V.Orxan**



əvvəli səh. 1-də

# Heykəldən acıq çıxan fransızlar...

## Deyəsən, peşman olublar

Azərbaycanın özünün ərazi bütövlüyünü, suverenliyini bərpa etməsini həzm edə bilməyən Fransada mədəniyyəti siyasi ambisiyalara qurban verənlərin gücü daş lövhələrə və cansız heykələ çatıb. Şəhərin bələdiyyə şurasının müxalif partiyadan olan və Azərbaycanın güclənməsini həzm edə bilməyən üzvlərinin hikkəsi ilə "Azərbaycan bağı" adlanan parkdakı qoyulmuş lövhələr götürülüb, Natəvanın heykəli isə vandalizm aktına məruz qalıb. Son illər islamofobiya, antisemitizmin getdikcə artdığı Fransa bir qrup səriştəsiz siyasətçinin ucbatından nüfuzunu itirməkdə davam edir. Özlərini "siyasətçi" adlandıranlar, müəyyən lobbi qruplarının əlində alətə çevrilən bəzi şəxslər mədəniyyət və incəsənətin xalqları, insanları və ölkələri birləşdirən körpü olduğunu dərk edə bilmirlər.

Amma son günlər fransalı rəsmilərdən məsələ ilə bağlı gələn açıqlamalar heykəldən acıq çıxmğın nə qədər axmaq bir ideya olduğunu dərk edənlərin də varlığını göstərir.

"Bildiyiniz kimi, Xurşidbanu Natəvanın heykəli vandalizm aktına məruz qalıb. Heykəlin burnu sındırılıb, həmçinin üzərinə qırmızı maye tökülüb. Şəhərimizin bu sahəyə məsul xidməti heykəli qorumaq üçün onu bürüyüb. Bu, şəhərimizin mövqeyidir. Bizim bu heykəli oradan götürmək, ondan qurtulmaq kimi heç bir niyyətimiz olmayıb və yoxdur. Heykəlin oradan götürülməsi heç vaxt müzakirə mövzusu olmayıb" – bunu isə AZƏRTAC-a Evian-Le-Bən şəhər meriyasının attraktivlik üzrə direktor müavini Kristel Okler söyləyib.

Vandalizm aktı ilə bağlı hər hansı təhqiqat işinin aparılmasına gəlincə, o, sözügedən parkda videomüşahidə sisteminin olmadığını və vandalizm aktını törədənlərin tapılmasının çətin olacağını qeyd edib.

Xatırladaq ki, 2015-ci ildə Azərbaycanın İsmayıllı şəhəri ilə Fransanın Evian-Le Bən şəhəri arasında dostluq və əməkdaşlıq haqqında xartiya imzalanıb. Xartiyanın məqsədi iki şəhər arasında dostluq əlaqələrini inkişaf etdirmək, mədəniyyət, turizm və iqtisadiyyat sahələrində ikitərəfli əlaqələrə töhfələr vermək olub. Bu addımlar atılıb, qarşılıqlı səfərlər baş tutub. 2017-ci ildə Evian şəhərində "Azərbaycan bağı"nın və bağda "Dostluq" bulağının, eləcə də Xurşidbanu Natəvanın heykəlinin açılışı olub. 2023-cü ilin dekabrında heykəl vandalizm aktına məruz qalıb. Yerli bələdiyyənin bir qrup üzvü Natəvanın heykəlinin bağdan götürülməsini tələb edib.

Çağdaş dünyada mədəni irsin qorunması qlobal miqyasda ortaq məsuliyyətdir. Mədəni irsin qorunması təkcə maddi mühafizə məsələsi deyil, həm də mədəni müxtəlifliyin ümumbəşəri əhəmiyyətinin təsdiqidir. Fransada bəzi siyasətbazlar bunu unudublar...

# "Şərq ekspresi" ilə qış səyahəti imkanı

Türkiyənin mərkəzindən şərqinə unudulmaz səyahət təklif edən dünyanın ən yaxşı dəmir yolu marşrutlarından biri olan "Şərq ekspresi" sərnişinlərini qarşılamağa hazırdır.



Təxminən 1310 km uzunluğunda olan qatar səfəri paytaxt Ankaradan başlayır. Qatar Kırıkkale, Kayseri, Sivas, Ərzincan və Ərzurumdan keçir və Qarsda səfərini yekunlaşdırır. Təxminən 26 saat davam edən səyahət sərnişinlərə ölkənin coğrafiyasını müşahidə etməyə imkan verir.

Qeyd edək ki, Ankara-Qars marşrutu üzrə iki ayrı qatar fəaliyyət göstərir. Bunlar "Şərq ekspresi" və "Turistik Şərq ekspresi"dir. Birincidə fasilə vaxtları məhdud olsa da, ikincidə sərnişinlərin marşrut boyunca bölgəni daha çox gəzə bilməsi üçün iki-üç saatlıq fasilə imkanı var.

"Turistik Şərq ekspresi" səkkiz çarpayı vaqonu və bir yemək vaqonundan ibarətdir. Turistik qatarın artan populyarlığı onu səyahətçilər üçün unikal qış əyləncəsinə çevirir. Səyahətin son dayanacağı olan Qarsda Fəthiye məscidi, Kümbet məscidi, Qars qalası kimi gəzib-görməli yerlər var. UNESCO-nun Dünya İrs Siyahısında yer alan Ani arxeoloji şəhəri də səyahət marşrutuna daxildir. Qarsda dünyanın üçüncü ən hündür xizək yolu və Sarıqamış Xizək Mərkəzi də yerləşir.

# Misirdə Ptolemey və Roma dövrünə aid tapıntılar



İspan arxeoloqları Misirin Minya əyalətindəki Əl-Bəhnasa nekropolunda Ptolemey və Roma dövrünə aid xəzinələr tapıblar. Barselona Universiteti və Qədim Yaxın Şərq İnstitutunun arxeoloqlar komandası nekropolda qayaüstü məzarlar, mumiyalar, tabutlar, qızıl maskalar və heykəllər aşkar edib.

Misirin Qədim Əsərlər Ali Şurasının baş katibi Mustafa Vəziri deyib: "Yeni kəşf bölgənin zəngin tarixinə daha çox işıq salır, çünki həm Ptolemey (305-30), həm də Roma (e.ə. 30-641) dövrlərinə aid bir sıra qayaüstü qəbirlər aşkar edilib. Bu məzarlıq o dövrün unikal dəfn üsullarını və bədii ifadələrini nümayiş etdirir".

Qazıntı zamanı Roma dövrünə aid mumiyalar da aşkar edilib. Onların bəziləri qızılı və rəngli dəfn maskaları ilə bəzədilib, iki mumiyanın ağzına isə qızıl dillər yerləşdirilib.

# İtaliyayamı getsək?

## Süni intellekt məsləhət görür...

"Mabrian" səyahət təhlili portalının məlumatına görə, İtaliya 2024-cü ildə Avropa qitəsində turistlərin ziyarət etmək istədiyi ən populyar ölkə olacaq.



Süni intellekt 2023-cü ilin yanvar və oktyabr aylarında sosial mediada səyahət tendensiyalarını araşdırıb. Araşdırma nəticəsində təbiət əsaslı səyahətlərə marağın artdığı məlum olub, hansı Avropa ölkələrinin ziyarətçilərin diqqət mərkəzinə çevriləcəyi sualının cavabı müəyyənləşib. Süni intellekt insanların səyahət seçimlərini müəyyən etmək üçün sosial mediada turizmlə bağlı 380 milyondan çox müzakirəni təhlil edib.

İtaliya dörd potensial populyar məkanı ilə qitə ölkələri arasında birinci yerdə qərarlaşıb. Piedmont şəhəri mədəniyyət, təbiət və qastronomiyanın cəlbedici qarışığı ilə ölkənin ən populyar şəhəri olacaq. Albada ənənəvi göbələk yarmarkası, Via Latteanın yamacları, Langhe üzüm bağları və Maggiore gölü İtaliyanın şimal-qərb bölgəsinə səyahət edənlər üçün müxtəlif fəaliyyətlərlə doludur. Turin aeroportu isə dünyanın hər yerindən ölkəyə asan çıxış təklif edir.

Bildirilir ki, Avropada təbiət və qastronomiya turizmi də daxil olmaqla bu istiqamətli səyahətlərin populyarlığı 2019-cu ildən bəri 8 faiz artıb. Buna baxmayaraq, mədəni turizm Avropaya səfər edənlər üçün əsas motivasiya olaraq qalmaqdadır.

## Xronoqraf

# Tarixdə bu gün



## Olaylar, faktlar (12–16 yanvar)

### 292 il əvvəl...

**16 yanvar 1732-ci ildə** Səfəvi dövləti ilə Osmanlı imperatorluqları arasında Qafqaza nəzarət uğrunda növbəti müharibənin yekunu olaraq Kirmanşah sülh müqaviləsi bağlanıb. Azərbaycanın İrəvan, Naxçıvan, Gəncə, Şamaxı və Şirvan bölgələri Osmanlı imperatorluğunun, Kirmanşah, Ərdəbil və Təbriz bölgələri isə Səfəvi dövlətinin nəzarətinə keçib.

### 231 il əvvəl...

**12 yanvar 1793-cü ildə** Rusiya və Prussiya Polşanı ikinci dəfə bölüşdürüblər. Peterburqda imzalanan müqaviləyə əsasən, Qdansk Prussiyaya verilib, Rusiya isə indiki Ukrayna və Belarusun əksər hissəsini əldə edib. Almanların Dansiq adlandırdığı Qdansk liman şəhəri 1945-ci ildən yenidən Polşanın tərkibinə qayıtdı.

### 118 il əvvəl...



**15 yanvar 1906-cı ildə** Sankt-Peterburqda Ümumrusiya müsəlmanlarının II qurultayı (15-23 yanvar) işə başlayıb. Qurultayda Rusiya Müsəlman İttifaqının (1905-ci ilin avqustunda Ümumrusiya müsəlmanlarının qurultayında təsis olunmuşdu) birinci Dövlət Dumasına seçkilərlə bağlı taktikası müzakirə edilib, yeni proqram qəbul olunub.

### 116 il əvvəl...

**12 yanvar (yeni təqvimlə 25 yanvar)** 1908-ci ildə Üzeyir Hacıbəylinin Məhəmməd Füzulinin poeması əsasında yazdığı "Leyli və Məcnun" operası Bakıda tamaşaya qoyulub. Bu, müsəlman Şərqində yaranan ilk opera idi.

### 96 il əvvəl...

**13 yanvar 1928-ci ildə** Bakıda Azərbaycan yazıçılarının birinci qurultayı başlayıb. Qurultayda Azərbaycan Proletar Yazıçıları Assosiasiyasının (Az.PYA) yaranması haqqında qərar qəbul edilib.

### 76 il əvvəl...



**12 yanvar 1948-ci ildə** ABŞ-nin Ali Məhkəməsi qaradərililərin ağdərililərlə eyni məktəbdə oxumasına icazə verən qərar çıxarıb. Birləşmiş Ştatlarda irqi ayrı-seçkilik rəsmən bu tarixdə ləğv edilsə də, reallıqda 60-cı illərədək davam edib.

### 42 il əvvəl...

**14 yanvar 1982-ci ildə** Şuşa şəhərində böyük şair Molla Pənah Vaqifin məqbərəsinin və Vaqif Poeziya evinin açılışı keçirilib. Mərasimlərdə respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev iştirak edib.

### 34 il əvvəl...

**15 yanvar 1990-cı ildə** Dağlıq Qarabağda gərginləşən münaqişənin qarşısında aciz qalan Azərbaycan SSR rəhbərliyi Dağlıq Qarabağ Muxtar Vilayətində və ona bitişik rayonlarda fövqəladə vəziyyətin tətbiq olunması üçün Moskvaya müraciət edib. Həmin gün SSRİ Ali Sovetinin Rəyasət Heyəti müvafiq qərar qəbul edib. Qərara əsasən, Ermənistanın Gorus rayonunda və İran-Azərbaycan (SSRİ) sərhədi boyunca da fövqəladə vəziyyət elan edilib. Fövqəladə vəziyyət elan edilən ərazilərə Sovet Ordusunun birləşmələri yeridilib, yerli hakimiyyət hərbçilərə verilib.

### 32 il əvvəl...

**14 yanvar 1992-ci ildə** Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında diplomatik əlaqələrin qurulmasına dair protokol imzalanıb. Bu, müstəqil Azərbaycanın imzaladığı ilk diplomatik sənəd idi. 1991-ci il noyabrın 9-da Azərbaycanın müstəqilliyini ilk tanıyan Türkiyə olmuşdu.

**Hazırladı: V.Orxan**

# Beynəlxalq qısametrajlı film müsabiqəsi

Türkiyənin Qara dəniz bölgəsi üzrə qeyri-hökumət təşkilatlarını bir araya gətirən KASTOB (Karadeniz Sivil Toplum Kuruluşları Konfederasyonu) beynəlxalq qısametrajlı film müsabiqəsinə film qəbulu elan edilib. Builki müsabiqə "Sahildə qadınlar" mövzusuna həsr olunub.




Beynəlxalq müsabiqəyə 2023-cü il dekabrın 25-dən sonra istehsal olunan 3-7 dəqiqəlik animasiya, bədii və sənədli filmləri olan müəlliflər müraciət edə bilərlər. Müraciət pulsuzdur və bir müəllif istənilən sayda film təqdim edə bilər. Filmlərin qəbulu fevralın 15-də başa çatır.

Layinənin məqsədi bədii və mədəni dəyəri yüksək olan orijinal və keyfiyyətli qısametrajlı filmlərin istehsalını təşviq etməkdir.

Ətraflı məlumatı təşkilatın saytında müvafiq linkdə (https://kastob.org.tr/tr/) əldə etmək olar. Qaliblərin 2024-cü ilin martında mükafatlandırılması planlaşdırılır.

# "Fəxri Oskar" mükafatının təqdimetmə mərasimi keçirilib

Los-Ancelesdə 14-cü "Fəxri Oskar" mükafatının təqdimetmə mərasimi keçirilib. Kinematoqrafiyada görkəmli xidmətlərinə görə mükafatlara aktrisa Anjela Bassett, rejissor Mel Bruks və kinomontajçı Kerol Littlton layiq görülüblər. Mişel Setterə isə Cin Herşolt adına Humanitar mükafat təqdim olunub.



Qeyd edək ki, mükafatlandırılma 2023-cü il noyabrın 18-nə planlaşdırılmışdı. Lakin Hollivudda aktyor və ssenaristlərin tətillərindən sonra mərasimin keçirilmə tarixi 2024-cü il yanvarın 9-na dəyişdirilmişdi.

"Fəxri Oskar" mükafatı konkret ilin nəticələrinə və ya hansısa film(lər)ə görə deyil, kinematoqrafiya sahəsində əhəmiyyətli nailiyyətlərə, eləcə də öz karyerası boyunca kino sənayesinə xidmətlərinə, bu sahəyə verilən töhfəyə görə təqdim olunur.

Amerika Kino Akademiyasının növbəti, 96-cı "Oskar" mükafatlarının təqdimat mərasimi isə mart ayına nəzərdə tutulub.

# "Qızıl ayı" bu dəfə Martin Skorsezeyə veriləcək

15-25 fevral tarixlərində keçiriləcək 74-cü Beynəlxalq Berlin Film Festivalında (Berlinale – 2024) "Qızıl ayı" fəxri mükafatının laureatı məlum olub. Məlumatlara görə, bu dəfə mükafata Hollivudun məşhur kinorejissoru, "Göylərin hakimi", "Pul ovçusu", "Zindan adası" və "The Irishman" kimi kino aləmində böyük əks-səda doğurmuş filmlərin quruluşçu rejissoru Martin Skorseze layiq görülüb.



Festivala sədrlik edən Karlo Çatrian və Mariette Rissenbek məşhur kinorejissoru "dünyada bənzəri olmayan" kino xadimi adlandırıblar.

Martin Skorsezenin son işi aktyorlar Leonardo Di Kaprio, Robert De Niro, Brendan Freyzerin əsas rolları oynadıqları və 2023-cü ildə Kann festivalında premyerası olmuş "Ay çiçəyi qatilləri" ("Killers of the Flower Moon") filmidir. Ekran əsəri bu il "Oskar" mükafatı üçün namizədlər sırasındadır. Hərçənd bu günlərdə (7 yanvar) keçirilən ənənəvi "Qızıl qlobus"un təqdimatında film mükafatsız qalıb.

Xatırladaq ki, ötən il 73-cü Berlin Beynəlxalq Film Festivalında fəxri "Qızıl ayı" mükafatı digər məşhur amerikalı rejissor Stiven Spilberqə təqdim edilib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 92
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641